# EVDƏ QAL, SAĞLAM QAL!

**Mehriban Əliyeva Azərbaycan xalqına müraciət edib**



Bax 3

**Vətəndaşının sağlamlığını hər şeydən üstün tutan LİDER**



Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 122 (6086) **21 iyul** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi!

*İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir"*



Bax 2

## O dərdli uşağın göz yaşı üçün...



Tovuz rayonu istiqamətində xain düşmənin törətdiyi hərbi təxribat nəticəsində Azərbaycan ordusunun bir qrup hərbçisi şəhid olub. Leyla Əliyeva "O dərdli uşağın göz yaşı üçün..." adlı şeirində bu itkidən doğan kədər hisslərini, xalqımızın qələbə əzmini, işğal altında...

Bax 4

## Serbiyanın müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırılıb



Bax 5

20 iyul 2020-ci il tarixində Serbiya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirilib. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, görüşdə X.Xələfov əldə edilmiş etibarlı və təsdiqlənmiş məlumata əsasən Serbiyadan...

## İbrahim Kalın: Azərbaycanın yanında olduğumuzu çox açıq və qəti şəkildə bildirmək istəyirik

Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın Azərbaycan-Ermənistan sərhədində yaşanan son hərbi təcavüz aktı ilə bağlı bir daha açıqlama verib. SİA-nın məlumatına görə, İbrahim Kalın NTV-yə müsahibəsində bildirib ki, Azərbaycanı təzyiq altında saxlamaq istəyirlər: "Diqqətdə olan əsas məsələ işğaldır...



Bax 11

## "Milli Şura" - qeybətxana və təhqirbazlıq mərkəzi

*Tərbiyəsizlik, riyakarlıq, rüsvayçılıq və daha nələr-nələr... "Milli Şura"nın koordinasiya mərkəzinin növbəti şousu ictimailəşdi və orada baş verənlər bir daha sübut etdi ki, "başbilənlərin" video-toplantılarının məqsədləri yalnız və yalnız onlarla olmayanları hədəfə götürərək, təhqir atəşinə tutmaqdan ibarətdir. Əslində, bu, heç təəccüblü...*



Bax 10

## Messidən daha bir tarixi uğur

"Barselona"nın futbolçusu Lionel Messi La Liqada tarixi göstəriciyə imza atıb. Qol.az-ın xəbərinə görə, argentinalı hücumçu İspaniya çempionatında 7 dəfə bombardir adını qazanan ilk futbolçu olub. Kapitan daha...



Bax 16

**Ermənistanda SES partladı!**



Bax 10

**Ermənilər Azərbaycanın Avstraliyadakı səfirliyinə qarşı vandalizm aktı törədiblər**



Bax 11

**"Ordumuz istənilən təxribatın qarşısını almaq iqtidarındadır"**



Bax 7

# Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi!

## *İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir"*



***"Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir". Bu fikirləri iyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı çıxışı zamanı bildirib. Dövlət başçısı bildirib ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi.***

Cənab Prezident nitqində vurğulayıb ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz: "O vaxt bizim torpaqlarımızın itirilməsi bilavasitə Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar fəaliyyəti ilə bağlıdır. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb. İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhesi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mübarizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir".

Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması nəticəsində Azərbaycanın 20 faiz torpaqlarını işğal etmişdir. Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistan bilərəkdən və sistemli şəkildə beynəlxalq hüququn norma və prinsiplərini pozaraq, mülki insanları, xüsusilə, qadın və uşaqları hədəfə alıb. Hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edir. Qaniçən ermənilər yaşlılara, qadınlara və uşaqlara zərrə qədər belə mərhəmət etmədən, əsl faşist simaların ortaya qoymuş oldular. Ölkəmiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səy göstərsə də buna nail ola bilmədi. 26 il atəşkəs rejimində yaşasaq da, bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayıb, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar.

### "Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi"

Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmazdır. İndi bizim düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordumuz var, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyi dəstəklənir və ən əsası da, insanlarda düşmənə qarşı mübarizəyə hazır olan yekdil əhval-ruhiyyənin olması, onu deməyə əsas verir ki, Qarabağ torpağı düşmən əsarətindən tezliklə azad ediləcək. "Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi" deyən Prezident İlham Əliyev bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacağının diqqətə çəkib: "Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı".

### "Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib"

Əlbəttə ki, məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən bir daha Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması çirkin siyasətin bir nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşışında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Bu gün də ermənilərin əməlləri ikrah doğurur. "Ermənistan ancaq əliyalın insanlara qarşı vuruşub, qocalara, uşaqlara qarşı soyqırımı törədib" deyən dövlət başçısı bildirib ki, Xocalı soyqırımını törədənlər Ermənistanın siyasi rəhbərliyidir, keçmiş hakimiyyətidir, keçmiş iki prezidentidir hərbi cinayətkarlar: "Xocalı soyqırımı zamanı bu cəlladlar tərəfindən 106 qadın, 63 uşaq öldürüldü. Əziz Əzizov da həmin erməni faşistlərin əməlləri nəticəsində həlak olmuşdur. Bildirməliyəm ki, ağsaqqal Əziz Əzizovun da qanı yerdə qalmayıb, qarşı tərəfə adekvat cavab verilib və veriləcəkdir və heç kimdə bu haqda şübhə olmasın".

Əlbəttə ki, bu gün Azərbaycanın güclü ordusu var. Öz torpaqlarının işğaldan azad etməyə qadir olan ordu müasir texnikalara yiyələnib. Azərbaycanın tutduğu yol haqq yoludur və onu bu yoldan kimsə döndərə bilməz. "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir" deyən Cənab Prezident qeyd edib ki, Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir: "Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

**Nəzakət ƏLƏDDİNQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev T.C.Cəfərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, Sərəncamla Azərbaycanda elmin inkişafında xidmətlərinə görə Təyyar Cümşüd oğlu Cəfərov "Şöhrət" ordeni ilə təltif edilir.

***

Prezident İlham Əliyev Anar Qabil oğlu Kərimovun Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini təyin edilməsi barədə Sərəncam imzalayıb.

Dövlətimizin başçısının digər Sərəncamı ilə A.Kərimov Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi barədə Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti Mədəniyyət nazirinin birinci müavini Anar Qabil oğlu Kərimova verilir.

# Mehriban Əliyeva Azərbaycan xalqına müraciət edib

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza müraciət edib. SİA müraciətin mətnini təqdim edir.***



"Hörmətli həmvətənlər!

Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun.

Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Emosiyalar çoxdur. Hüznlə və şəhidlərin işıqlı xatirəsinə ehtiramla yanaşı ən güclülərindən biri qürur hissidir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə qürur. Vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə qürur. Ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi.

Hər kəsi saran birlik, ruh yüksəkliyi nümayiş etdirmək və tarixi həqiqətin təntənəsi, - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, - bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir. Bu günlər ərzində əsl Vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram.

Əziz qardaşlar və bacılar!

Yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi fonunda bu gün bizim hər birimizdən dözümlü, sayıq və təmkinli olmaq tələb olunur. Hər an unutmamalıyıq ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilirlər.

Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən "feyk"lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd - çaxnaşma, nifaq salmaq və daxili "cəbhə" yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Bir sözlə, insan qəlbinin ən kövrək tellərinə toxunmaq üçün ən çirkin vasitələrə əl atılır. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək "müharibədə bütün vasitələr yaxşıdır" prinsipi ilə hərəkət edirlər.

Çox sevindirici haldır ki, Azərbaycanın internet istifadəçilərinin əksəriyyəti təxribata uymur, yalan və böhtanı ifşa edir, ağı qaradan seçməyi bacarır və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs edir. Axı bizim əsas vəzifələrimizdən biri ədaləti tələb edən haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqdır.

Fəallıq göstərən, düzgün danışan, qanun və əxlaq normaları çərçivəsində əsaslandırılmış şəkildə bu fəaliyyət sahəsində ölkəmizin maraqlarını qoruyan hər kəsə təşəkkür edirəm.

Amma başqa misallar da var. Öz Vətəninə nə dərəcədə nifrət etməlisən ki, Azərbaycan Ordusunun düşmən təxribatına layiqincə cavab verdiyi bir vaxtda üçüncü ölkələrdə gizlənərək "darmadağın edilmiş" Azərbaycan mövqeləri, mülki əhali arasında çoxsaylı insan tələfatı haqqında yalanları efirə verəsən, həmvətənlərimizin qəlblərinə təlaş, qorxu və məyusluq yeridəsən? Yaxud əhəmiyyətsiz, həyata keçirilməz siyasi ambisiyalar naminə parçalanma, hərc-mərclik, qarışıqlıq yaratmaq üçün Azərbaycan gənclərinin vətənpərvərlik əhval-ruhiyyəsindən istifadə etməyə çalışasan?

Bu hərəkətlərə və belə insanlara haqq qazandırmaq olmaz. Onların öz torpağı naminə canından keçməyə hazır olan milyonlarla azərbaycanlı ilə ümumi heç nəyi yoxdur və ola da bilməz. Tanrı onlara hakimdir, çünki ictimai qınaqdan başqa Allah qarşısında hamı cavabdehdir.

Əziz dostlar!

Sosial şəbəkələrdə nümayiş etdirdiyiniz qarşılıqlı dəstəyi, səbri, həmrəyliyi, təmkini və özünənəzarəti görməmək mümkün deyil. Buna görə sizə minnətdaram! Biz hamımız sayıq olmalı, təxribata uymamalıyıq. Gəlin hər dəfə yeni paylaşım edərkən, foto yerləşdirərkən və ya şərh yazarkən unutmayaq ki, biz müharibə şəraitində yaşayırıq və qarşı tərəf informasiya məkanında yayımladığımız hər şeydən istifadə edə bilər. Unutmayaq ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur.

Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!

Sevgilərlə,

Sizin MEHRİBAN".







## Mehriban Əliyeva 12 şəhid hərbçi ilə bağlı Heydər Əliyev Fonduna tapşırıq verdi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Fondun nümayəndələri Tovuz istiqamətində döyüşlərdə şəhid olan hərbçilərin ailələrində olub. SİA-nın məlumatına görə, ötən gün Heydər Əliyev Fondunun nümayəndələri Sumqayıt şəhərində general-mayor Polad Həşimovun və Bakı şəhərində polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət edib. Azərbaycan dövlətinin dəstəyi ilə yanaşı Heydər Əliyev Fondu tərəfindən də hər zaman şəhid ailələrinə yüksək diqqət göstərildiyi vurğulanıb.



Mehriban Əliyevanın tapşırığına əsasən Tovuz rayonu istiqamətlərdə şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğılarının daim Fondun nəzarətində olacağı bildirilib. Qarşıdakı günlərdə Fondun nümayəndələri Ağstafa, Tovuz, Qazax, İsmayıllı, Biləsuvar və Masallı rayonlarında olaraq şəhid ailələrinə baş çəkəcək.

## Şahmar Mövsümov: "Yoluxmaların sayında azalma sevindirici haldır"

"Yoluxmaların sayında azalma sevindirici haldır. Bu cəmiyyətin çəkdiyi əziyyətin nəticəsidir". Bunu Operativ Qərargahın keçirdiyi brifinqdə Prezidentin köməkçisi Şahmar Mövsümov deyib. O bildirib ki, artıq Lənkəran və Samux narıncı zonadan çıxarılıb: "Bu tendensiya davam etsə biz müəyyən açılmalara gedə bilərik və gələcəkdə də bəzi sahələrin açılması da gözlənilir. Bir daha vətəndaşlarımızdan xahiş edirik ki, hamımız birlikdə karantin rejiminin qaydalarına riayət edək".





## Rusiya Ermənistan-Azərbaycan sərhədində vəziyyətin tezliklə nizamlanacağına ümid edir

Rusiya ümid edir ki, Ermənistan-Azərbaycan sərhədində vəziyyət mümkün qədər tez bir müddətdə nizamlanacaq və bu münaqişə ətrafında yaranmış emosional fon normal məcraya qayıdacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib.

Kreml rəsmisi qeyd edib ki, RF vətəndaşlığına malik ermənilər də, azərbaycanlılar da Rusiya cəmiyyətinin nüfuza sahib üzvləridir. Lakin aydındır ki, bu rusiyalı vətəndaşlar Ermənistan-Azərbaycan sərhədində vəziyyətin mürəkkəbləşməsi məsələsinə etinasız qala bilməzlər. "Biz ümid edirik ki, bu vəziyyət mümkün qədər tez bir müddətdə nizamlanacaq və bu münaqişə ətrafında yaranmış emosional fon da normal məcraya qayıdacaq", - deyə D.Peskov bildirib.

# Vətəndaşının sağlamlığını hər şeydən üstün tutan LİDER

## *Prezident İlham Əliyev: "Mənim üçün insanların sağlamlığı əsas prioritetdir"*

***Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realllığıdır. Buna isə...***




### "Biz birlikdə güclüyük!" devizi ilə...

Bəli, dövlət başçısı hər an öz xalqının yanında olduğunu göstərməkdədir. Dövlətin siyasəti onu göstərir ki, insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Təbii ki, cəmiyyət Prezidentin bu qayğısını görür, anlayır, başa düşür və "Biz birlikdə güclüyük" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər.

Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, "Biz birlikdə güclüyük!" və hər kəs də yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq: "Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir. Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil - cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik. Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir".

### "Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz?"

"Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır",- deyən dövlət başçısı bildirib ki, hər kəs maska taxmalıdır və bu bu insanların sağlamlığı üçün atılan addımdır: "Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir".

Dövlət başçısı bütün bu məsuliyyətsiz hərəkət edənlərə qarşı ictimai qınağın olmasını da deyib: "Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır. Mən bu məsələ ilə bağlı Operativ Qərargaha göstəriş verdim ki, çox ciddi dövlət nəzarəti olmalıdır. Belə olan halda biz bütün tədbirləri daha operativ şəkildə görə bilərik və bu vəziyyətdən az itkilərlə çıxa bilərik".

### İki cəbhədə mübarizə - təcavüzkar Ermənistan-gözəgörünməz koronavirus

Bəli, bu gün unutmayaq ki, dünyada və regionda koronavirus pandemiyasının hökm sürdüyü bir dönəmdə iyulun 12-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlardan sonra dövlət və xalq olaraq biz artıq iki cəbhədə mübarizə aparırıq: həm işğalçı Ermənistana, həm də gözəgörünməz koronavirus adlı düşmənə qarşı. Çox vaxt həkimlərimiz bu savaşdan qalib çıxsa da, həyatını itirənlər də var. Elə buna görə də, qəbul edilən qərarlara səbirlə, təmkinlə yanaşaq, dözüm nümayiş etdirək. Dövlətin tövsiyələrinə, çağırışlarına və qadağalarına əməl edək ki, düşmənə qalib gələ bilək. Bu gün istər pandemiyaya, istərsə də cəbhədə düşmənə qarşı mübarizədə ən vacib məsələ güclü milli iradə nümayiş etdirmək, həmrəyliyə nail olmaqdır. Hər iki cəbhədə mənfur düşmənlə mübarizədə qələbə çalmağın yeganə yolu bir olmaqdan, həmrəy olmaqdan keçir. Məhz buna görə də "Bir olaq, həmrəy olaq, qalib olaq!".

### Koronavirus: karantin rejimi uzadıldı, SMS icazənin müddəti artırıldı

Azərbaycanda ölkə üzrə karantin rejimi daha iki həftə - 31 avqust saat 00:00-dək uzadılıb. Bundan başqa, Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında mövcud sərtləşdirilmiş xüsusi karantin rejiminin 5 avqust saat 06:00-dək davam etməsinə qərar verilib. Həmçinin, xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda aşağıdakı tarixlərdə həftəsonları (25 iyul saat 00:00-dan 27 iyul saat 06:00-dək və 1 avqust saat 00:00-dan 3 avqust saat 06:00-dək) bütün ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

Adları çəkilən ərazilərdə iyulun 20-dən bəri masaj və hamam xidməti istisna olmaqla bərbərxana, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərin göstərilməsinə icazə verilib. Bundan başqa, SMS icazənin müddəti 2 saatdan 3 saatadək artırılır.

Nazirlər Kabineti yanında Operativ Qərargah "şəxslər arasında COVID-19 infeksiyasına yoluxma dinamikası" nəzərə almaqla Lənkəran şəhəri və Samux rayonunda 20 iyul 2020-ci il tarixdən etibarən sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunmayacağını qeyd edib.

Və bu gün karantin rejiminin uzudılmasında məqsəd hər kəsin ilk öncə özündə sosial məsuliyyət hiss etməsini dərk etməsi məqsədidir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür. Və sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlara qarşı isə ciddi tədbirlər görülür, görülməlidir də. Və dövlətin xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atması ancaq və ancaq vətəndaşların sağlamlığı və təhlükəsizliyi üçündür!

Bəli, bütün bunları xalqımız görür və hamılıqla dövlət başçımız İlham Əliyevin yürütdüyü siyasətə dəstək olmaqla bir daha "Biz birlikdə güclüyük!" şüarının sadəcə sözdə deyil əməlimizlə bu virusa qarşı irəli sürülən qaydalara məsuliyyətlə əməl edək!

**RƏFİQƏ KAMALQIZI**



# O dərdli uşağın göz yaşı üçün...

***Tovuz rayonu istiqamətində xain düşmənin törətdiyi hərbi təxribat nəticəsində Azərbaycan ordusunun bir qrup hərbçisi şəhid olub. Leyla Əliyeva "O dərdli uşağın göz yaşı üçün..." adlı şeirində bu itkidən doğan kədər hisslərini, xalqımızın qələbə əzmini, işğal altında inləyən torpaqlarımızın azad olunacağına inamını ifadə edir. AZƏRTAC şeiri təqdim edir.***

O dərdli uşağın göz yaşı üçün...
Bombalar səs-səsə veriblər yenə,
Vətənin bağrından qan axır indi.
Düşmən gülləsinə tuş olan əsgər,
Yaran qəlbin qədər dərin, dərindi.

Ağlayır bir ata itirmiş uşaq,
Ağlayır göylərdə Günəş də bu gün.
Ellikcə savaşa hazırıq, Vətən,
O dərdli uşağın göz yaşı üçün.

Bir gün qayıdacaq yerinə hər şey,
Bir gün sevinəcək bu yurd, bu ocaq...
Ancaq o atanın isti qucağı
Bir də o uşağa açılmayacaq.

Elimiz qələbə sorağı gözlər:
Gözləri yoldadı, qulağı səsdə.
Analar əlini qoyub and içir
Oğul itkisinin ağrısı üstə.

Gün gələr, o zəfər xəbəri gələr,
Öpər igidlərin başdaşlarını.
Ata nisgiliylə qovrulan uşaq
Dəfn eylər gözündə göz yaşlarını.

### General Yücel Karauz: Son hadisələr zamanı Azərbaycanda xalq- ordu, xalq-Prezident birliyinin şahidi olduq



Ermənistanda hazırda korrupsiya və rüşvət baş alıb edir, səfalət hökm sürür, bütün bunlarla mübarizə belə aparılmır. Pandemiya səbəbindən bu ölkənin əhalisi ən çətin durumdadır. Ermənistan hakimiyyəti xalqın diqqətini bu böhrandan yayındırmaq üçün belə bir yeni münaqişə mənbəyi yaratmağa çalışır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında istefada olan general Yücel Karauz bildirib.

O vurğulayıb ki, Ermənistan hər dəfə əvvəlki müharibələrin məğlubiyyətini əvəzini çıxmaq üçün yeni hücumlara əl atır. Lakin hər dəfə onların cəhdləri uğursuz olur, düşmən daha böyük itkilər verir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Ordu quruculuğunun təməlini qoydu və qısa müddət ərzində böyük işlər görüldü. Bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O deyib: "Ordu quruculuğu uzan zaman tələb edir. Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycan Ordusu texniki təchizat, təlim və tədris, şəxsi heyətin milli mənəvi ruh yüksəkliyi baxımından qısa zamanda böyük inkişaf yolu keçib. Bütün bu nailiyyətlər həm 2016-cı ilin Aprel döyüşlərində, həm də son təxribat zamanı özünü təsdiq etdi. Ön cəbhədə döyüşən general, zabit, gizir və əsgərlər əsl qəhrəmanlıq göstərdilər. Bu hadisələrin ilk anından başlayaraq qardaş Türkiyə Azərbaycanın yanında oldu".

Yücel Karauz deyib ki, son hadisələr zamanı Azərbaycanda xalq-ordu, xalq-Prezident birliyinin şahidi olduq. Azərbaycanın peşəkar və mübariz ordusu, yenilməz komandirləri və müdrik Prezidenti vardır.

## Hikmət Ərən: “Ermənistan daha miskin duruma düşmək istəmirsə, işğalçılıq siyasətinə son qoymalıdır”



Məlum olduğu kimi, iyul ayının 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi hərbi təxribatların qarşısı Azərbaycan Silahlı Qüvvələri tərəfindən qətiyyətlə alındı. Eyni zamanda, işğalçı ölkənin bu addımı bir sıra ölkələr və təşkilatlar tərəfindən qınanmaqdadır. Öz növbəsində, məsələyə münasibət bildirən Türkiyədə fəaliyyət göstərən Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin (EkoAvrasya) İdarə Heyətinin sədri Hikmət Ərən son günlər Azərbaycan-Ermənistan sərhədində düşmən ölkənin hərbi təxribatından sonra cərəyan edən hadisələri yaxından izlədiyini deyib. Açıqlamasında onsuz da acınacaqlı durumda, siyasi və iqtisadi böhran girdabında olan Ermənistanın pandemiya şəraitindəəsaslı tədbirlərin görülməməsi səbəbilə daha da çətin vəziyyətə düşdüyünü bildirən Hikmət Ərən “Ermənistan iqtisadi və siyasi böhran içərisindədir. Ölkəni böhrandan çıxarmaq üçün heç bir uğurlu addım atmayan və buna görə də xalq arasında nüfuzunu tamamilə itirən Ermənistanın mövcud hakimiyyəti vəziyyətdən çıxış yolunu Azərbaycanla sərhəddə hərbi təxribat törətməkdə gördü. Onlar bununla erməni əhalisinin diqqətini daxili problemlərdən yayındırmaq məqsədi güdürdülər. Lakin onların bu niyyəti baş tutmadı” deyib.

Ermənistanın bir terror dövləti olduğunu söyləyən Hikmət Ərən bu ölkənin hər bir addımının da terrorçuluq təfəkkürünə əsaslandığını qeyd edib: “Biz son hadisələr zamanı bir daha bunun şahidi olduq. Belə ki, Ermənistan silahlı qüvvələri təkcə sərhəddəki Azərbaycan əsgərlərini deyil, eyni zamanda, sərhəd bölgəsində yaşayan dinc sakinləri də hədəfə alıb. Xaricdəki bəzi dairələrin, bir sıra ölkələrin təhriki və erməni disporunun da istəyi ilə bu cinayəti törədən Ermənistan hər zaman lənətlə anılacaq”.

Hikmət Ərən Azərbaycanın mövcud siyasi, iqtisadi və hərbi gücünün çox yüksək olduğunu da vurğulayıb: “Son illərdə həyata keçirilən islahatlar nəticəsində Cənubi Qafqaz regionunda sabitliyin və inkişafın ünvanı olan Azərbaycana qarşı təxribatlar həyata keçirən Ermənistan heç bir nəticə əldə edə bilməyəcək. Azərbaycan torpaqlarını işğal altında saxlamaq üçün atılan bu addımlar Ermənistana heç bir uğur vəd etmir. Əksinə, bu cür davranış Ermənistanı mühüm regional və qlobal layihələrdən kənarda qoymaqda davam edəcək. Əgər Ermənistan daha da miskin duruma düşmək istəmirsə, bir an öncə işğalçılıq siyasətindən əl çəkməlidir”. Türkiyənin hər zaman olduğu kimi, bu dəfə də Azərbaycana lazım olan bütün dəstəyi göstərəcəyinin bəyan edilməsinin Türk dünyası tərəfindən böyük məmnuniyyətlə qarşılandığını deyən Hikmət Ərən daha sonra bildirib: “Bu gün Qafqazda sabitliyin davam etməsinin tərəfdarı olan və Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir Türkiyə var. Xüsusilə, də cənab Rəcəb Tayyib Ərdoğanın “əcdadın əsrlər boyunca yerinə yetirdiyi bir vəzifəni Qafqazlarda yenə də yerinə yetirməkdə davam edəcəyik” sözləri Türk dünyasında böyük coşqu ilə qarşılanıb, dosta güvən, düşmənə isə qorxu bəxş edib. Türkiyə ilə Azərbaycan arasında qardaşlıq bağlarının güclü olması və tarixi vəzifələrin yerinə yetirilməsi məsələsində tərəddüd etmədən addımların atıla biləcəyinin bəyan edilməsi Azərbaycanın tək olmadığını bir daha təsdiqləyir. Bizim də eyni qətiyyətlə Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün atacağı hər addımda qardaş ölkənin yanında olacağımızı və Azərbaycan-Türkiyə qardaşlığının qiyamətə qədər davam edəcəyini bir daha bəyan edirəm”.

## “The Jerusalem Post” qəzeti: “Bu yaxınlarda Azərbaycan ilə Ermənistan arasında münaqişənin şiddətlənməsinə səbəb koronavirus olubmu?”


THE JERUSALEM POST

Jerusalem Post > World News

Did coronavirus cause the most recent Azerbaijan-Armenia escalation?

By MAAYAN JAFFE-HOFFMAN JULY 18, 2020 16:20

Bəzi analitiklərin fikrincə, bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hərbi eskalasiyanın katalizatoru COVID-19 ola bilər.

AZƏRTAC xəbər verir ki, jurnalist Maayan Yafe-Hoffman İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetdə dərc edilmiş “Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hərbi eskalasiyanın səbəbi COVID-19 olubmu” sərlövhəli məqaləsində bu barədə yazır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib: “Ermənistanda koronavirus ilə bağlı vəziyyət o qədər dəhşətlidir ki, ölkə liderləri öz xalqının diqqətini real problemlərdən yayındırmağa çalışırlar”.

Hoffman yazır: “İyulun 12-də Ermənistan ordusu Azərbaycan-Ermənistan sərhədinin şimal-qərbindəki Tovuz rayonu istiqamətində artilleriya atəşi ilə Azərbaycan mövqelərinə hücum etməyə cəhd göstərib. Azərbaycan silahlı qüvvələrinin sarsıdıcı cavab tədbirləri nəticəsində itkilər vermiş Ermənistan silahlı qüvvələri geri çəkilməyə məcbur olublar”.

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin bu provokasiyası beynəlxalq hüququn norma və prinsiplərini pozulması, həmçinin iki ölkə arasında atəşkəs haqqında qüvvədə olan sazişin kobud şəkildə pozulmasıdır. Məqalə müəllifi vurğulayır ki, münaqişənin eskalasiyası nəticəsində 76 yaşlı Azərbaycan vətəndaşı minaatandan açılmış atəş nəticəsində öldürülüb. Maayan Yafe-Hoffmanın İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetdə dərc edilmiş məqaləsində deyilir: “Bu iki keçmiş sovet respublikası Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisinin bir hissəsi olana Dağlıq Qarabağ regionu ilə əlaqədar 1988-ci ildən münaqişə vəziyyətində olduğuna baxmayaraq, son hərbi toqquşmalar qeyri-adi sayılır, çünki bu toqquşmalar Dağlıq Qarabağ regionundan təqribən 300 kilometr aralıda yerləşən Tovuz rayonunda baş verib”.

Məqalə müəllifi vurğulayır ki, həmin toqquşmalar neft-qaz kəmərlərinin, o cümlədən Avropanın həyati əhəmiyyətli enerji təhlükəsizliyini təmin edən Cənub qaz dəhlizinin yerləşdiyi regionun bilavasitə yaxınlığında baş verib. Bu, beynəlxalq birliyin narahatlığına səbəb olub. Müəllif vurğulayır: “Bəzi analitiklərin sözlərinə görə, Ermənistan bu münaqişəyə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə öz müttəfiqləri olan ölkələr kimi xarici aktorları cəlb etməyə və qarşıdurmanın miqyasını genişləndirməyə çalışır. Ermənistan məhz bu səbəbdən Tovuz regionunu seçib.

Xatırladaq ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə etinasızlıq göstərərək Dağlıq Qarabağı və ona bitişik yeddi rayonu işğal altında saxlayır. Bundan əlavə, ABŞ Dövlət Departamenti qondarma “DQR”-i müstəqil ölkə kimi tanımır, Azərbaycanın ərazi bütövlüyünə hörmət edir və onu dəstəkləyir.

Məqalə müəllifi vurğulayır: “Azərbaycan və Ermənistan 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalayıblar, lakin bu sazişə tam riayət edilmir və vaxtaşırı olaraq müxtəlif toqquşmalar baş verir”.

Bütün bunlara baxmayaraq, toqquşmaya COVID-19-un təhrik etməsi nəzəriyyəsi də eyni dərəcədə ehtimallıdır. Bu gün dünyada koronavirusun yayılmasının izlənməsi sisteminin məlumatına görə Ermənistanda 34.001 yoluxma halı və 620 ölüm faktı qeydə alınıb. Tənqidçilər Ermənistan hökumətini və baş nazir Nikol Paşinyanı böhranın səmərəsiz idarə edilməsində təqsirləndirirlər. Analitiklərin fikrincə, bu vəziyyət siyasi böhrana çevrilə bilər. Beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut bildirib: “Paşinyan administrasiyası eyni vaxtda bir neçə ciddi problemlə üzləşib”.

Arye Qut deyib: “COVID-19 ilə əlaqədar Ermənistanda iqtisadi böhran və daxili siyasi problemlər real gündəlikdədir. Paşinyanın əleyhdarları və müxalifət tərəfindən təzyiq də öz yerində. Bu halda xalqın diqqətini koronavirus pandemiyası ilə əlaqədar ölkə daxilində yaranmış ciddi sosial-iqtisadi problemlərdən yayındırmaq üçün Azərbaycan ilə kiçik bir müharibə yeganə çıxış yolu ola bilərdi. Koronavirus Ermənistanı fəlakət həddinə çatdırıb və ölkə dəhşətli epidemioloji vəziyyətdədir”.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat katibi Vaqif Dərgahlı bildirib ki, hazırda sərhəddə vəziyyət sabitdir. Vaqif Dərgahlı deyib: “İyulun 12-dən 14-dək vəziyyət çox gərgin idi. Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayır, rəsmi Bakı isə illər boyu bu münaqişənin dinc yolla nizamlanmasına ümid edirdi. Hətta bu gün də Azərbaycan müharibəyə başlamaq niyyətində deyil. Biz sülh və həmrəylik istəyirik”.

## Serbiyanın müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırılıb



20 iyul 2020-ci il tarixində Serbiya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirilib. Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, görüşdə X.Xələfov əldə edilmiş etibarlı və təsdiqlənmiş məlumata əsasən Serbiyadan Ermənistana minomyotlar və müxtəlif kalibrli hərbi sursat da daxil olmaqla böyük həcmdə silah sursatın göndərildiyini qarşı tərəfə bildirib.

O, Ermənistan hərbi qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hücum əməliyyatları zamanı əsasən müxtəlif kalibrli minomyotlardan istifadə edildiyini, sərhədyanı yaşayış məntəqələri və mülki əhalinin təhlükəsizliyini təmin edən Azərbaycanın hərbi qüvvələrinin mövqelərinin artilleriya və minomyot atəşlərinə məruz qaldığını, Ermənistan hərbi qüvvələrinin xain hücumlarının qarşısının alınması zamanı Azərbaycan hərbi qüvvələrinin bir generalı və 10 hərbi qulluqçusunun, o cümlədən bir nəfər sərhəd kəndinin sakininin həlak olduğunu qeyd edib. Nazir müavini Azərbaycan Respublikası və Serbiya Respublikası atasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu, bu xüsusda, 2013-cü ildə iki ölkə arasında dövlət başçıları səviyyəsində dostluq və strateji tərəfdaşlığa dair bəyannamənin və 2018-ci ildə strateji tərəfdaşlıq üzrə birgə fəaliyyət planının imzalandığını Serbiya müvəqqəti işlər vəkilinin diqqətinə çatdırıb.

Həmin sənədlərdə Azərbaycan və Serbiyanın bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıdığı qeyd olunub. Serbiya tərəfinin Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarlarına uyğun olaraq Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinin tərəfdarı olduğu təsdiq olunub.

Nazir müavini xatırladıb ki, strateji tərəfdaşlıq sənədinə əsasən tərəflər sülhə və sabitliyə təhlükə zamanı adekvat reaksiya vermək məqsədilə təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığı prioritet istiqamətlər kimi müəyyən etmişlər. X.Xələfov bildirib ki, Azərbaycan Respublikası iki ölkə arasında strateji tərəfdaşlığa sadiq qalaraq çətin vaxtlarda dost Serbiyaya həmişə yardım əlini uzadır və bu Serbiya rəhbərliyi tərəfindən dəfələrlə minnətdarlıqla qeyd edilib. O bildirib ki, Azərbaycan Serbiyanın ərazi bütövlüyünə dəstək məsələsində də hər zaman ardıcıl mövqe nümayiş etdirib. Nazir müavini, Ermənistana silah göndərilməsi məsələsinin hər zaman, o cümlədən də ikitərəfli əlaqələrimizin gündəliyində duran həssas bir mövzu olduğunu vurğulayıb. Bu xüsusda, Serbiya tərəfinin Ermənistanın işğalçı siyasətinə və Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən təcavüzünə dəstək xarakteri daşıyan qeyri-dost addımının Azərbaycan xalqında və rəhbərliyində dərin təəssüf və acı məyusluq doğurduğunu bildirilib. X.Xələfov bu cür qeyri-dost fəaliyyətlərin Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq münasibətlərini və strateji tərəfdaşlığa xələl gətirdiyini, yüksək səviyyədə mövcud qarşılıqlı etimada kölgə saldığını vurğulayıb. Nazir müavini Azərbaycan tərəfinin Ermənistanın Cənubi Qafqaz istiqamətində vəziyyətin destabilizasiyasına səbəb olan, regiondakı təhlükəsizlik və sabitliyə xələl gətirən hərbi təxribatının məkrli dərin qatlı məqsədlərinə işarə edərək, Serbiya Respublikasından izahat və bu cür hərəkətlərə gətirib çıxaran səbəblərin aradan qaldırılmasını gözlədiyini bildirib. Serbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili xanım Danitsa Veinoviç qeyd olunan məsələlərlə bağlı məlumatının olmadığını söyləyib, məlumatları Serbiya tərəfinə çatdıracağını vəd edib, baş vermiş bu hadisələrdən təəssüf hissi keçirdiyini və bu hadisələrin Serbiya-Azərbaycan strateji tərəfdaşlıq və dostluq münasibətlərinə xələl gətirməyəcəyinə ümidvar olduğunu qeyd edib.

## ÜST koronovirusa qarşı kütləvi peyvəndlənmə üçün vaxt verdi



Koronovirusa qarşı kütləvi peyvəndləmə 2021-ci ilin ortalarında başlaya bilər. SİA xəbər verir ki, bu sözləri Ümumdünya Səhiyyə Təşkilatının sədr müavini Sumiya Svaminatan deyib. Onun sözlərinə görə, hazırda 20 namizəd peyvəndə kliniki sınaqlardan keçir. Onlardan bəzilərinin təsir göstərəcəyinə dair ümid var. Nəticələr gələn ilin əvvəli alına bilər. ÜST nümayəndəsi deyib ki, koronovirusa qarşı antikorların bir müddət sonra yoxa çıxması virusa qarşı immunitetin tam yoxa çıxması mənasına gəlmir.

# Meksika Parlamentinin bəyanatı haqlı mübarizəmizə növbəti dəstəkdir

*Milli Məclisin deputatı Jalə Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Jalə xanım, son günlər Ermənistanın növbəti təxribatı nəticəsində Azərbaycan-Ermənistan sərhəddinin Tovuz istiqamətində yenidən gərginlik yaranıb və hələ davam etməkdədir. Bu barədə həm Milli Məclis olaraq, həm də şəxsən mövqeyinizi dərhal açıqlamısınız, sərt mövqeyinizi bildirmisiniz. Ancaq istərdik ki, bir daha baş verənlərə, Ermənistanın növbəti fitnəkarlığının arxasında daha nələrin dayandığına münasibətinizi ifadə edəsiniz. Niyə məhz indi, niyə məhz Tovuz?***

- Təəssüflər olsun ki, işğalçı və təcavüzkar Ermənistanın növbəti təxribatı nəticəsində Azərbaycan-Ermənistan sərhəddinin Tovuz istiqamətində iyulun 12-də başlayan gərginlik hələ də davam edir. Arasıra fasilələr olsa da, yenə atəş səsləri eşidilir, yenə döyüşlər davam edir. Ermənilərə və Ermənistana layiq olduğu və haqq etdiyi cavabı verilib, verilir. Ötən 6 gün ərzində 11 şəhid vermişiksə, bir neçə yaralananımız olubsa, ermənilərə bunun az qala on qat artığı ödədilib. Müdafiə Nazirliyinin son məlumatına əsasən, iyulun 12-dən bu yana ermənilər tərəfindən yaralı və ölü sayı olaraq, 100-ə yaxın itki verilib. Generalımızın, polkovnikimizimin, digər 9 şəhidimizin qəhrəmanımızın qanı yerdə qalmayıb, qoyulmayıb, onların qisası daha ağır şəkildə alınıb və Ermənistan hər mənada, hər bir düşərgədə, həm döyüş meydanında, həm siyasət, həm diplomatiya savaşında geri oturdulub. Bu, qondarma, vassal, forpost "ölkə" hər mənada özünü itirib, tükənib, təklənib. Üzvü olduğu və çox güvəndiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT), illərlə onlara havadarlıq edən bir neçə beynəlxalq təşkilata və dövlətə müraciətləri, yalvarışları belə nəticəsiz və faydasız qalıb. İstəklərinin heç biri alınmayıb, gözlənilən dəstək, növbəti hiylə və timsah göz yaşları baş tutmayıb. KTMT-nin dünənki iclasında xatirə fotosu çəkiliş zamanı yaşananlar isə Ermənistana, onun özünü idarə edə bilməyən, küçə səviyyəsindən o yana gedə bilməyən Baş nazirinə münasibətin əsl göstəricisi olub. Özünü hörmət edən dövlət və siyasətçi, dövlət rəhbəri o münasibətdən sonra həmin tədbiri yarımçıq tərk etməli idi. Amma bir daha təsdiqləndi ki, ermənilər və Ermənistan üçün heç vaxt dövlət və dövlətçilik qüruru olmayıb və bundan sonra da olası deyil. Təbii ki, Ermənistanın və onun havadarlarının işğalçılıq siyasəti, niyyətləri ortadadır, 32 ildir ki, bu, işğalçılıq və təcavüzkarlıq siyasəti davam etdirilir. Amma budəfəki təxribat, budəfəki fitnəkarlıq Ermənistanın son bir neçə ayda bütün cəbhələrdə, xüsusilə, siyasət arenasında küncə sıxışdırılmasından doğan qəzəb, həm də Tovuz bölgəsinin çox strateji bölgə olması, bir çox



dünya miqyaslı boru kəmərlərinin, xətlərin (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi Qars...) məhz oradan keçməsi və sairlə bağlıdır. Budəfəki niyyət və məqsədlər, fitnəkarlıq əməlləri daha qorxulu və təhlükəlidir. Həm də onlar bu məsələdə tək deyillər, bu haqda da geniş danışmaq istəməzdim, çoxlarına bəllidir. Ona görə də həm daxildə yaşanan təlatümlərdən diqqəti yayındırmaq, həm Azərbaycana olan qəzəbi bir az olsa belə, soyutmaq, həm də dəstək, güc aldıqları dairələrin antiAzərbaycan niyyətlərini gerçəkləşdirmək üçün bu məqamı və bu məkanı seçdilər. Amma dərhal da peşman edildilər və bundan sonra da ediləcəklər. Tam əmin olsunlar!

***- Qeyd etdiyiniz kimi, Ermənistanla və havadarları ilə təkcə hərb meydanında deyil, həm də siyasət, diplomatiya cəbhəsində döyüşürük. Bu istiqamətdə necə deyərlər, döyüşlər, müharibə, mübarizə istədiyimiz kimi gedirmi, alınırmı?***

- Bəli, ermənilərlə və Ermənistanla, ona gizli və açıq dəstək verənlərlə savaşımız təkcə hərb meydanında deyil, həm də siyasət, diplomatiya meydanında gedir, davam edir. Bu, həm də Azərbaycan dövlətinin, ölkə Prezidentinin, Ali Baş Komandanın iradəsi və tələbidir. İstər Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan son iclasında çıxış, istərsə də, yeni Xarici işlər nazirini videoformatda qəbul zamanı ölkə başçısının ən önəmli və vacib tələblərindən, tapşırıqlarından biri də o oldu ki, bizə müdafiə, kiminsə xoşuna gələn diplomatiya deyil, hücum diplomatiyası, ermənilərə hərb meydanında olduğu kimi, siyasət, diplomatiya savaşında da ciddi, sarsıdıcı zərbələr endirilməsi lazımdır. Tamamilə, haqlı, vaxtında, yerində olan tələb və tapşırıqdır. Hərb qədər, siyasi və diplomatik gedişlər də önəmlidir. Təbii ki, bu məsələdə diplomatlarımızla, Xarici İşlər Nazirliyimizlə (XİN) yanaşı, millət vəkillərinin, ali qanunverici orqanımız olan Milli Məclisin (MM) də üzərinə, çiyinlərinə böyük vəzifələr düşür...Onu da xatırlatmaq yerinə düşər ki, istər Azərbaycan Parlamentinin yüz illiyində, istərsə də, 6-cı çağırış MM-in ilk açılış iclasında ölkə Prezidentinin tarixi çıxışlarında bu məqamlar xüsusilə qabardılmış, millət vəkillərinin də çiyinlərinə böyük vəzifələr düşdüyü vurğulanmışdı. Bu məsələyə keçməzdən öncə qeyd etmək istərdim ki, son günlər yaşanan ağır hadisələrin fonunda bir daha hər bir kəsin, hər bir dövlətin, hər bir beynəlxaslq qurumun mövqeyi, siması bəlli oldu...Dost, əsl tərəfdaş kimdir o da özünü göstərdi, ikili mövqe nümayiş etdirən, "dəymə mənə, dəyməyim sənə" prinsipi ilə illərdir prinsipsizlik, mövqesizlik göstərənlər də...Yenə də qardaş və dost Türkiyə birinci oldu. Xarici İşlər Nazirliyi, sonra isə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan səviyyəsində Azərbaycana əsl qardaş dəstəyi ifadə olundu, Ermənistana sərt xəbərdarlıq edildi...Həmçinin, Türkiyə Böyük Millət Məclisi, 4 önəmli siyasi partiya səviyyəsində Azərbaycana dəstək nümayişi ifadə edildi. Eyni zamanda, Azərbaycana, işğal faktına görə, Ermənistanla hələ də diplomatik-siyasi münasibətlər qurmayan və müstəqilliyimizi ilk tanıyan 3 ölkədən biri olan dost və qardaş Pakistandan Azərbaycana dəstək gəldi, Azərbaycanın bir daha haqq mövqeyi dəstəkləndi. Bununla yanaşı, dost və strateji müttəfiqimiz olan Ukraynadan, üzv olduğumuz bir neçə regional (xüsusilə, TÜRKPA-dan) və beynəlxalq qurumlardan Azərbaycanın haqlı mövqeyinə açıq dəstək ifadə edilən mövqelər bildirildi. Bu məsələdə Parlamentimizin spikeri-xanım Sahibə Qafarovanın da böyük xidmətləri var. Çünki cəbhədə baş verən gərginliyin eryəsi gün Sahibə xanım Qafarova tərəfindən üzv olduğumuz və MM tərəfindən əməkdaşlıq edilən bütün beynəlxalq qurumlara, onların rəhbərlərinə müraciətlər olundu, Ermənistanın addımlarının sərt şəkildə qınanılması, pislənilməsi istənildi.

***- Yeri gəlmişkən, parlament diplomatiyası da çox önəmlidir və bu istiqamətdə işlər nə yerdədir, qaneedicidirmi? Rəhbəri olduğunuz Azərbaycan-Meksika parlamentlərarası dostluq qrupunun bu sahədə fəaliyyəti haqqında məlumat almaq istərdik.***

- Bir az öncə dediyim kimi, Parlamentimizin sədrinin məlum müraciətlərindən ötən qısa müddət ərzində də bir neçə təşkilatdan gələn cavablar, dəstək nümayişləri bunun əyani təsdiqi oldu. Eyni zamanda, ötən gün dost Meksikadan Azərbaycana dəstək nümayişi özünü göstərdi. Çünki bu da təsadüfi deyil. Bu gün Azərbaycanla Meksika arasında gözəl siyasi, diplomatik, iqtisadi münasibətlər var. Meksika həm də o ölkələrdəndir ki, 20-ci əsrin ən böyük qanlı qətliamı olan Xocalı vəhşətini parlament səviyyəsində soyqırımı aktı kimi tanıyan qətnamə qəbul edib. Bununla da, şərin, haqsızın, təcavüzkarın yanında deyil, məhz haqqın, haqlının yanında olduğunu nümayiş etdirib. Heç şübhəsiz ki, bu qətnamənin qəbul olunmasında Azərbaycanla-Meksika parlamentləri, o cümlədən, hər iki ölkənin Dostluq qruplarının sıx, qarşılıqlı əlaqələri də önəmli rol oynayıb. Çox sevindirici və əlamətdar haldır ki, hər iki dövlətin ali qanunverici orqanlarının analoji Dostluq qrupları qarşılıqlı şəkildə gözəl əməkdaşlıq əlaqələri qurmağa nail olublar. Bildiyiniz kimi, artıq bir neçə aydır-yəni, 6-cı çağırış MM dövründən Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə İşçi Qrupuna mən rəhbərlik edirəm. Hələ 12 iyul hadisələrindən öncə videokonfrans formatında meksikalı həmkarımızla və digər rəsmilərlə bir araya gəlinmiş, ötən müddətdə görülən işlərə, xüsusilə, Dağlıq Qarabağ münaqişəsi Xocalı soyqırımı ilə bağlı mövqeyinə görə, Meksika dövləti və parlamentinə minnətdarlıq bildirilmiş, növbəti dönəmdə də bütün istiqamətlərdə, o cümlədən, parlament diplomatiyası çərçivəsində əlaqələrin daha da gücləndirilməsi, intensivləşdirilməsi qərara alınmışdı. Və 12 iyul hadisələrindən sonra ilk dəstək nümayişlərindən biri yenə Meksika Deputatlar Palatasından, Meksika-Azərbaycan Dostluq Qrupunun sədri tərəfindən gəldi. Dostluq Qrupunun, qrup rəhbəri cənab Aqustin Qarsiya Rubionun yaydığı bəyanatda Azərbaycanın Tovuz rayonu istiqamətində hücumlar qəti şəkildə pislənmiş, BMT Təhlükəsizlik Şurasının (TŞ) 4 qətnaməsi, həmçinin, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində münaqişənin həllinə çağırış edilmişdir. Bununla yanaşı, döyüşlər zamanı vəfat edənlərlə bağlı Azərbaycan xalqına dərin hüznlə başsağlığı ifadə edilmişdir. Hesab edirəm ki, bu, olduqca önəmli və təqdirəlayiq, alqışlanmalı bir mövqedir. Bunu özü də bir siyasi, diplomatik uğurdur. Bu məsələdə də hec şübhəsiz ki, parlamentimizin, ötən dövrdə qurulan və davam etdirilən əlaqələrin xüsusu rolu olmuşdur. Odur ki, həm Dostluq Qrupumuzun, həm də parlamentimizin adından meksikalı həmkarlarımıza minnətdarlığımızı ifadə edir, münasibətlərin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyimizi ifadə edirik. Bu ölkənin Azərbaycandakı Səfiri cənab Xuan Rodriqo Labardini ilə mütəmadi olaraq telefonla və video bağlantı şəklində əlaqə saxlayırıq. Eyni zamanda Azərbaycanın Meksikadakı səfirliyi ilə, səfirimiz cənab Məmməd Tallbovla da aktiv işbirliyi içərisində ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafına öz töhvəmizi verməyə çalışırıq. Artıq Dostıuq Qrupumuzun adından meksikalı həmkarlarımıza, adıçəkilən Dostluq Qrupuna bizə 12 iyul hadisələrində verdikləri dəstəyə görə minnətdarlıq ifadə edən məktubumuz hazırdır və həftənin ilk iş günündə Meksika Parlamentinə göndəriləcəkdir.Bəli, ermənilərə, Ermənistana qarşı bütün cəbhələrdə, səngərlərdə mübarizə davam edir, davam etdirilməlidir və davam etdiriləcək-Qələbəyəcən, Zəfərəcən!!!

## 46 mindən çox vətəndaş döyüşlərdə iştirak etmək üçün müraciət edib




Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə könüllü olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək istəyən vətəndaşların çoxsaylı müraciətləri davam edir.

Bu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən SİA-ya məlumat verilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çağırışına səs verən 46 mindən çox vətəndaş bugünədək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün öz arzularını ifadə edib və müvafiq formada qeydiyyata alınıblar.

## Nazirlik: "Tikinti işləri dayandırılıb"



"Tri korona" yaşayış kompleksinin arxasındakı gölün qurudulması və ərazidə tikinti işlərinin aparılması ilə bağlı daxil olan şikayəti Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları araşdırıblar. Nazirliyin mətbuat katibi İradə İbrahimova AZƏRTAC-a bildirib ki, ərazidə tikinti işləri dayandırılıb və faktla bağlı akt tərtib olunub. Təqsirkarlar barəsində müvafiq tədbirlər görüləcək.

# Azərbaycan cəmiyyəti möhtəşəm birlik nümayiş etdirməkdədir

## *Milli Məclisin deputatı Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, son günlər dövlət sərhədində təxribat törədən işğalçı Ermənistanın hərbi birləşmələrinə Azərbaycan Ordusu tərəfindən layiqli cavab verildi. İyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev baş verən hadisələrlə bağlı fikirlərini bildirib. Bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, iyulun 12-dən başlayaraq işğalçı Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınıb. Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyev baş verən bu hadisələrlə bağlı geniş şəkildə fikirlərini bildirib, ictimaiyyətə ətraflı məlumat verib. Cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd edib. Amma bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur.

Nazirlər Kabinetinin iclasında çıxışı zamanı Prezident İlham Əliyev son günlər ərzində baş vermiş hərbi toqquşmanı bizim növbəti şanlı qələbəmiz kimi səciyyələndirib. Dövlət başçısının dediyi kimi, 2020-ci il 12 iyul əməliyyatının Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Aprel döyüşlərində olduğu kimi, bu dəfə də mənfur qonşu ən çirkin əməllərə əl ataraq yaşayış məntəqələrini atəşə tutub və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olub. Mülki əhaliyə qarşı törədilən cinayətlər bir daha onu göstərir ki, Ermənistan faşist dövlətidir.

Qeyd edim ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqlarımızın itirilməsi isə dövlət başçısının dediyi kimi, 1990-cı illərin əvvəlində hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. Ancaq son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərib. Heç kimə sirr deyil ki, Ermənistan tərəfindən törədilən hərbi təxribatın səbəbi Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır. Bu məqama toxunan cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistanda xaricdən maliyyələşən, xarici fondlardan maaş və təlimat alan, onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yolla zəbt edəndən sonra bir çox vədlər vermişdi. Amma bu vədlərin heç birini yerinə yetirə bilmir. Belə ki, Ermənistanda bəzi kəndlər, şəhərlər boşalır. Bu isə işğalçı ölkənin nə qədər ağır durumda olduğunu və Paşinyan diktatura hakimiyyətinin əhalini düşdüyü ağır vəziyyətdən diqqətini yayındırmaq üçün bu cür təxribatlara əl atmasını göstərir.



***- Hazırkı günlərdə Azərbaycan xalqı güclü birlik və həmrəylik nümayiş etdirir. Xüsusilə gənclərimiz orduda xidmət etmək üçün könüllü müraciətlər edirlər...***

- İşğalçı Ermənistanın hərbi birləşmələri tərəfindən Azərbaycanın Tovuz istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə hücumundan və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda bir daha güclü milli birlik və həmrəylik nümayiş etdirilir. Xalqımız, cəmiyyətimiz ümummilli məsələmiz olan torpaqlarımızın düşmənlərdən qorunması prosesində möhtəşəm birlik göstərməkdədir. Respublikamızın hər bir guşəsində xalqın Ali Baş Komandana, ordumuza dəstək aksiyaları keçirildi. Döyüşlər başlayandan biz xalqın coşğusunun necə yüksək olduğunu görürük. Ötən günlər ərzində respublikamızın hər bir guşəsində ordumuza dəstək aksiyaları keçirilir, torpaqlarımızın işğaldan azad edilməsi üçün vətəndaşların müraciətlərini eşidirik. Eyni zamanda, şəhidlərin ruhuna böyük ehtiram göstərilir.

Nazirlər Kabinetinin iclasında cənab Prezidentin çağırışı ilə bugünədək 2-3 gün ərzində 23 mindən artıq insan orduya getmək üçün rəsmi şəkildə müvafiq qurumlara müraciət edib və bu proses davam edir.

Onu da qeyd etməliyəm ki, iyulun 14-də axşam saatlarında Bakı şəhərində dövlətə və orduya dəstək aksiyası keçirilən zaman kiçik bir qrup təxribat edərək Milli Məclisin binasına hücum edib. Binaya daxil olaraq inzibati binaya maddi zərər yetiriblər. Əlbəttə ki, bu hadisə əvvəlcədən düşünülmüş bir təxribat olub, ermənilərin və ermənipərəst dairələrin maraqlarına hesablanıb. Onlar ölkə rəhbərliyinə dəstəyin istiqamətini dəyişməyə cəhd ediblər. Şübhə yoxdur ki, bu təxribatda beşinci kolon əsas rol oynayıb. Ona görə də, bu cür hallar yolverilməzdir və təxribatçılar cəzalandırılmalıdır.

***- Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti də bu məsələdə həmrəylik nümayiş etdirirərək birgə bəyanat imzalayıblar. Bu faktın əhəmiyyəti nədən ibarətdir?***

- Belə bir günlərdə siyasi baxışlarından, yaşından, statusundan , cinsindən asılı olmayaraq Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə edirlər. Təqdirəlayiq haldır ki, cəmiyyətin digər təbəqələri kimi ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların da mütləq əksəriyyəti öz mövqelərini bildiriblər. Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq müxtəlif proqramı, platforması, fərqli məqsədi və məramı olan siyasi partiyalar iqtidar partiyası ilə olan fikir ayrılığını, məsələlərə müxtəlif yanaşma tərzini bir kənara qoyaraq, həmrəylik nümayiş etdirib və Ali Baş Komandanın yanında olduqlarını bəyan ediblər.

Əslində, belə bir həmrəyliyin ifadə olunması cəmiyyətimizin çoxdan gözlədiyi məsələ idi. Ölkə ictimaiyyəti siyasi rəqiblərin Vətən təhlükədə olduğu anda birlik və həmrəylik etdirmələrini çox yüksək dəyərləndirir. Yaranmış vəziyyətlə bağlı ölkədə fəaliyyət göstərən 43 siyasi partiyanın sədri birgə bəyanat imzalayıb və bu, o deməkdir ki, Azərbaycandakı partiyaların mütləq əksəriyyəti vahid mövqedən çıxış edirlər. Birgə bəyanatdan da göründüyü kimi siyasi partiyalar bəyan edirlər ki, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, dövlət başçısımızın ətrafında sıx birləşiblər. "Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik"-deyə, bəyanatda vurğulanır.

Birgə bəyanatla yanaşı, bəzi müxalifət partiyalarının ayrı-ayrılıqda Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədovun, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərin, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin bəyanat verərək Ali Baş Komandanımıza dəstək nümayiş etdirmələri də bu məsələdə milli birliymizin göstəricisi hesab olunmalıdır.

Siyasi partiyaların vəziyyəti düzgün dəyərləndirmələri və analiz etmələri, son hücumların məhz sərhəd zonasında baş verməsinin təsadüfi olmadığı, Ermənistanın və onun havadarlarının təcavüzkar niyyətinin yalnız Dağlıq Qarabağla məhdudlaşmadığını bildirmələri, Ermənistanın təcavüzünün təsdiq edilməsi baxımından da əhəmiyyətlidir. Dövlətimizə və ordumuza dəstək aksiyalarında müəyyən dairələrin təxribata cəhd göstərmələri isə ermənilərin maraqlarına xidmət edir. Belələrinə Azərbaycan cəmiyyətində yer yoxdur və xalqımız onları şiddətlə qınayır. Eyni zamanda, heç bir daxili və xarici siyasi amil Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini poza bilməz. Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir. Bütövlükdə isə, siyasi partiyaların birgə bəyanatla çıxış etməsi ölkəmizdə milli həmrəyliyin əyani göstəricisidir.



## "Ordumuz istənilən təxribatın qarşısını almaq iqtidarındadır"

***"Tarix boyu erməni şovinistləri xarici qüvvələrin havadarlığı ilə Azərbaycan xalqına qarşı məkrli addımlar atıb, qırğınlar, soyqırımlar həyata keçiriblər. Ermənistan silahlı qüvvələri illərdir beynəlxalq humanitar hüququn bütün prinsip və normalarına zidd olaraq, mülki əhalini məqsədyönlü şəkildə əsas hədəf kimi seçdi. Faşizm siyasəti yürüdən "qonşu"larımız Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində və digər yerlərdə dinc əhalinin amansız şəkildə kütləvi qırğınını, soyqırımını törətməklə, Dağlıq Qarabağda yaşayan azərbaycanlıları tarixi torpaqlarından didərgin saldılar". Bunu SİA-ya millət vəkili Pərvin Kərimzadə deyib.***

Deputatın sözlərinə görə, işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayan erməni hakimiyyəti əzəli-əbədi, dədə-baba torpaqlarımızda qanunsuz məskunlaşma aparır. Azərbaycan Respublikasının 20 faiz ərazisi - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olundu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşdü, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak oldu, 50 min nəfər əlil oldu. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşdü, onların 67-i uşaq, 265-i qadın, 326-ı qoca idi. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüququn tələblərini yerinə yetirməyəcəksə, o zaman biz Dağlıq Qarabağ probleminin həllində digər yolları arayacağıq. Məlum Aprel hadisələri zamanı ölkəmizin hərbi üstünlüyü, siyasi uğurları və diplomatik qalibiyyəti bir daha nümayiş etdirildi. Yenə də Azərbaycan humanistliyini göstərdi, atəşkəs elan etdi və sülh prosesinə sadiqliyini isbatlayaraq ordumuzun irəliləməsini dayandırdı. Beynəlxalq miqyasda bir daha sübut olundu ki, Ermənistan nizamlama prosesinin normal məcrada gedişinə maneə yaratmaqda israrlıdır.

Bu il iyulun 12-də Ermənistan yenidən təxribata əl atdı, işğalçı dövlətin silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərinə hücum etdi. Hətta işğalçı dövlətin silahlı qüvvələri mülki əhalini də atəşə tutmaqdan çəkinmədilər. Ağdam kəndinin sakini 76 yaşlı Əzizov Əziz erməni vandalizminin qurbanı oldu. Vətən torpağının hər qarışı uğrunda canından keçməyə hazır olan, el-obanın namusunu, şərəfini hər şeydən uca tutan igid oğullarımızın həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri otuzduruldu. Düşmənin ağır hərbi texnikaları, istehkamları, müdafiə qurğuları ordumuz tərəfindən darmadağın edildi. Bu gün Azərbaycanın güclü Ordusu var və istənilən təxribatın qarşısını almaq iqtidarındadır. Bu gün biz düşmənə qarşı milli birlik, həmrəylik, güclü iradə nümayiş etdirməliyik".

**Ceyhun Rasimoğlu**

# Vətəndaşlar Prezidentə yazırlar: "Fəxr edirik ki, Sizin kimi Ali Baş Komandanımız, güclü nizami ordumuz var"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlarımız tərəfindən çoxsaylı minnətdarlıq məktubları ünvanlanır. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Tərtər rayonundan Svetlana Əzizova yazır: "Möhtərəm cənab Prezident, biz Tərtər rayonunda düşmənlə təmas xəttində yaşayırıq. Tərtər rayonunda elə bir küçə, elə bir ev yoxdur ki, oradan Vətənin müdafiəsinə oğul yola salınmasın. Ərazi bütövlüyümüz uğrunda şəhidlərimiz də var. Qazilərimiz də müharibənin hər ağrı-acısını yaşayıblar. Döyüş görmüş insanlarıq. Nankor qonşularımız yaşayış məntəqələrimizi həmişə atəşə tutub, evlərimiz dağılıb, amma bir qarış da torpaq verməmişik. Tərtər düşmənə həmişə göz dağı olub. Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin törətdiyi təxribatlara Sizin rəhbərliyinizlə tutarlı cavablar verildi. Biz tərtərlilər Sizi, ordumuzu dəstəkləyir, qürur duyuruq. Allah ərazi bütövlüyümüz uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin. Məkrli qonşularımız öz məğlubiyyətlərini görüb yeni təxribatlara əl atırlar. Düşmən əsgəri səngərdən, döyüşdən qaçır. Bizim oğullarımız isə döyüşə getmək üçün könüllü olaraq müraciət edirlər. İstər əhalinin, istər ordunun əhval-ruhiyyəsi yüksəkdir. Çünki Prezidentimiz, Ali Baş Komandanımız xalqla birgə, generallarımız öz cəbhədə əsgərlərlə birlikdədir. Biz qələbəyə, Ali Baş Komandana, Azərbaycanın güclü və nizamlı ordusuna inanırıq. Tanrı Sizi və xalqımızı qorusun!".

İmişli rayonundan İsmayıl Mehrəliyev: "Hörmətli cənab Prezident, məlum olduğu kimi, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutublar. Ordumuz vaxtında və layiqli cavab verərək düşməni böyük itkilərlə geri çəkilməyə məcbur edib. Azərbaycan Ordusu düşmənin istənilən hücumuna cavab verə biləcək gücdə olduğunu bir daha sübut etdi. Bildirmək istəyirəm ki, hər zaman Sizin siyasətinizi dəstəkləyirik və əmrinizi gözləyirik. Cənab Prezident, Sizin rəhbərliyinizlə ordu quruculuğunda aparılmış böyük islahatların nəticəsidir ki, bu gün hər bir Azərbaycan vətəndaşının qürur duyduğu ordusu var və buna görə bir vətəndaş olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Vətənimizin ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması naminə canından keçmiş bütün əsgər və zabitlərimizin qisasının alınacağına əminəm. Azərbaycan Respublikasının vətəndaşı və əsgər kimi Sizin müvafiq göstərişinizlə Vətənin müdafiəsinə hər zaman hazıram".

Lerik şəhərindən Bahar Mürsəliyeva: "Hörmətli cənab Prezident, biz daim Sizinləyik. Sizə - Ali Baş Komandanımıza inanırıq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığınız uğurlu siyasəti bəyənir və dəstəkləyirik. Siz ordu quruculuğuna hər zaman böyük diqqət və qayğı göstərmisiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə torpaqlarımız qısa müddətdə işğaldan azad ediləcək".

Biləsuvar rayonunun Günəşli kəndindən Elvin Əlizadə: "Hörmətli cənab Ali Baş Komandan, biz Biləsuvar gəncləri daim Sizinləyik. Əminik ki, Sizin rəhbərliyinizlə qısa müddətdə torpaqlarımız işğaldan azad ediləcək, şəhidlərimizin qisası alınacaq. Azərbaycan əsgərinin zəfərinə zərrə qədər şübhəmiz yoxdur. Bu inam Sizə, Azərbaycan əsgərinə, Azərbaycan Ordusunun qüdrətinə inamdır. Gənclər adından Sizin bütün qərarlarınızı dəstəklədiyimizi bildirir, əmrlərinizi gözləyirik".

Bakı şəhərinin Yasamal rayonundan Günel İmanovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, mən fizika üzrə fəlsəfə doktoru, gənc aliməm. Hər zaman olduğu kimi, bu çətin günlərdə də xalqın yanında olduğunuza görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Koronavirus pandemiyası bütün dünyada çox sayda problemlərə səbəb olub. Amma bu sahədə zəhmət çəkən, əziyyəti olan insanların əməyinin dövlət tərəfindən qiymətləndirilməsi yalnız Azərbaycana aiddir. Buna görə Sizə təşəkkür edirik. Ən çətin məqamlarda, hər zaman hər bir vətəndaşın yanında olduğunuzu verdiyiniz qərarlarla sübut edirsiniz. Bu çətin günlərdə bunu bir daha göstərmiş oldunuz. Hörmətli Prezident, Sizin tapşırığınızla dövlət tərəfindən əhali üçün bir sıra güzəştlər edilir, ehtiyacı olanlara maddi dəstək göstərilir. Mən bir vətəndaş, bir gənc alim kimi xalqa olan yüksək qayğınız üçün Sizə minnətdaram. Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə ölkəmizdə gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində böyük işlər görülür. Sizin gənclərə inanıb onları yüksək vəzifələrə layiq görməyiniz bizi çox qürurlandırır və bizə olan qayğınız bizim özümüzə inamımızı daha da artırır. Mən bir gənc alim olaraq çox sevinirəm ki, Azərbaycan Respublikasına Sizin kimi müdrik, uzaqgörən siyasi xadim rəhbərlik edir. Mən Sizinlə fəxr edirəm, Sizə dəstəyim misilsizdir. Allah Sizi qorusun!".

Sabunçu rayonunun Bakıxanov qəsəbəsindən Fərman Məmmədov: "Hörmətli cənab Prezident, mənim 86 yaşım var. Erməni vandallarının Azərbaycan-Ermənistan sərhədində törətdiyi təxribat hamı kimi məni də hiddətləndirdi. Lakin ordumuzun layiqli cavabı məni və milyonlarla azərbaycanlını bir o qədər də qürurlandırdı. Mən hər zaman ordumuza mənəvi dəstək olmağa hazıram. Ölkəmizdə olan birliyə, ruh yüksəkliyinə görə isə Sizə ayrıca minnətdarlığımı bildirirəm. Var olun, cənab Prezident!".

Biləsuvar rayonundan Aqil Bəşirov: "Hörmətli cənab Prezident, son günlər cəbhə xəttində baş verən hadisələrdə Azərbaycan Ordusu təxribatçı düşmənə layiqli cavab verməklə ordumuzun nəyə qadir olduğunu bir daha dünyaya sübut etmiş oldu. Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Baş vermiş hadisələr, qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmiş oldu. Ordumuzun bugünkü uğuru Sizin hər zaman ordu quruculuğuna böyük diqqət və qayğı göstərməyinizin bariz nümunəsidir. Biz Sizə hər zaman inanmışıq və bu gün də inanırıq. İnanırıq ki, rəhbərliyiniz və uzaqgörən siyasətinizlə Vətənimizin ərazi bütövlüyü tez bir zamanda bərpa olunacaq. Cənab Ali Baş Komandan, Sizin xarici və daxili siyasətinizi bəyənirik və biz biləsuvarlılar hər zaman yanınızda bir yumruq kimi birləşirik. Sizi əmin edirik ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda hər an ön cəbhədə döyüşməyə hazırıq. Ordumuzla və Sizinlə qürur duyuruq".

Naxçıvan şəhərindən Muxtar Bağırov: "Möhtərəm cənab Prezident, mən ehtiyatda olan leytenant kimi Sizin "irəli" əmrinizi gözləyirəm. Bizim canımız da, qanımız da bu Vətənə, bu millətə qurbandır. Mən də bu xalqın nümayəndəsi kimi daim Sizin yanınızdayam və həmişə də yanınızda olacağam. Siz bizim əvəzedilməz liderimizsiniz. Cənab Ali Baş Komandan, bu xalq hər zaman Sizin yanınızdadır. Biz Sizin üçün canımızı da verməyə hazırıq. Allah Sizə, xalqımıza uzun ömür versin".

Binəqədi rayonundan Rüfət Rəşidov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bütün regiona təhlükə olan erməni vandalizminin qarşısını qətiyyətlə alan Azərbaycan Ordusunun qəhrəmanlığını alqışlayıram. Şiddətli döyüşlərdə iştirak edən bütün hərbçiləri dəstəkləyirəm. Sizin Azərbaycan Ordusuna verdiyiniz dəstək əvəzedilməzdir. Ordu quruculuğu istiqamətində gördüyünüz işlərin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu düşmənə layiqli cavab verə bilir. Biz həm Aprel döyüşlərində, həm də bu gün Tovuz bölgəsində baş verən erməni təxribatının qarşısının alınmasına şahid olduq. Rəşadətli, qüdrətli Azərbaycan Ordusu istənilən vaxt işğalda olan torpaqlarımızı azad etmək gücündədir. Sizin qətiyyətli çıxışlarınızda böyük qələbənin işıqlarını görürük. Əminəm ki, Cocuq Mərcanlıda, Lələtəpədə yaşanan o böyük qələbənin davamını yaxın vaxtlarda Şuşada, Xankəndidə və başqa işğal olunmuş ərazilərimizdə görəcəyik. Cənab Ali Baş Komandan, Azərbaycan xalqı öz ordusuna inanır, ona güvənir. Çünki onun Sizin kimi Prezidenti və Ali Baş Komandanı var. Biz Sizin iradənizə güvənirik və Sizin kimi Prezidentlə qürur du-

# <u>Vətəndaşlar Prezidentə yazırlar:</u> "Fəxr edirik ki, Sizin kimi Ali Baş Komandanımız, güclü nizami ordumuz var"



yuruq. Biz Sizin ətrafınızda sıx birləşmişik və daim əmrinizə hazırıq".

Bakı şəhərindən Züleyxa Heydərova: "Hörmətli cənab Prezident, son günlər erməni hərbçilərinin atəşkəsi pozaraq döyüş mövqelərimizi atəşə tutmaları hamımızı hiddətləndirib. Xalqımızın bütün diqqəti cəbhə xəttindədir. Bu gün mənfur düşmənin təxribatının qarşısını güclü ordumuz qəhrəmancasına almışdır. Ləyaqətlə, şərəflə vəzifələrini yerinə yetirən hərbçilərimiz arasında şəhidlərimiz var. Biz inanırıq ki, Sizin komandanlığınızla bu təxribatına görə düşmənə layiqli cavab veriləcək və şəhidlərimizin qanı yerdə qalmayacaq. Xalqımız Sizin yürütdüyünüz siyasətə tam güvənir".

Ucar şəhərindən Nəzakət Qasımova: "Hörmətli cənab Prezident, bu günlər hər birimiz Azərbaycan vətəndaşı olaraq Ermənistanla sərhəddə - Tovuz rayonunda baş verən hadisələri həyəcanla izləyirik. Lakin əminik ki, qüdrətli ordumuz Sizin komandanlığınızla düşmənin layiqli cavabını verəcək və verməkdədir. Əmin olun ki, hər bir azərbaycanlı haqq işimizdə Sizinlə birlikdədir. Sizə güvənirik, cənab Prezident. Torpaq uğrunda ölən varsa, Vətəndir. Allah şəhidlərimizə rəhmət eləsin. Qələbə bizimlədir".

Səbail rayonundan Aydan Qasımova: "Hörmətli cənab Prezident, hər kəsə məlum olduğu kimi, erməni silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində hücumlarının qarşısı şanlı ordumuz tərəfindən alınır. Azərbaycan gəncləri Sizə inanır və Sizinlə fəxr edir. Şərəf, namus olan Vətən torpağını qoruyan ordumuzla qürur duyuruq, cənab Prezident!".

Tərtər rayonundan Bəhruz Köçərli: "Möhtərəm cənab Prezident, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribatlara Azərbaycan Milli Ordusu tərəfindən verilən tutarlı cavab hər bir Azərbaycan vətəndaşını qürurlandırır. Fəxr edirik ki, Sizin kimi Ali Baş Komandanımız, güclü nizami ordumuz var. Xalqın dövlətin, ordunun yanında olması, keçirilən orduya dəstək aksiyaları bunun bariz nümunəsidir. Düşmənə layiqli dərs verildi. O gördü ki, bizim generallarımız da öz cəbhədə, əsgərlərimizin yanındadır. Biz fəxr edirik ki, ordumuzun belə igid generalları, zabitləri var. Allah Vətən torpağını öz qanı, canı bahasına qoruyan bütün şəhidlərimizə rəhmət eləsin". Bu gün Azərbaycan əsgəri düşməni məhv etməyə, torpaq uğrunda canından keçməyə hazırdır. Xalq öz Prezidentinə, onun yeritdiyi siyasətə güvənir, ordumuzun qələbəsini alqışlayır. İnanırıq ki, tezliklə düşmən üzərində tam qələbə qazanacağıq. Bu qələbənin sevincini tam yaşayacağıq".

Göyçay rayonundan Çingiz İbrahimov: "Hörmətli cənab Prezident, mən bir gənc olaraq Sizin ölkəmizin daha da güclənməsi, daha da inkişaf etməsi, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində gördüyünüz misilsiz işləri, xidmətləri dəstəkləyir, alqışlayır və bu fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan Ordusu iyul ayının 12-dən başlayaraq dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan ordusunun qəfil və xaincəsinə törətdiyi təxribatın qarşısını qəhrəmancasına aldı. Şanlı ordumuz ağır döyüşlər nəticəsində düşmənin çoxlu sayda hərbi texnika və canlı qüvvəsini məhv etdi, hərbi mövqelərinə sarsıdıcı zərbələr endirdi, şəhidlərimizin qanını yerdə qoymadı. Cənab Ali Baş Komandan, biz Sizin yanınızdayıq və Sizin əmrinizlə torpaqlarımızı işğaldan azad etməyə hər an hazırıq. Allah Sizin kölgənizi xalqımızın başı üzərindən əskik etməsin, Sizi və xalqımızı qorusun. İnanırıq ki, işğal altındakı bütün torpaqlarımızı Allahın izni ilə və Sizin rəhbərliyinizlə tezliklə düşmən tapdağından azad edəcəyik və şanlı bayrağımız doğma torpaqlarımızda dalğalanacaq".

Ağcabədi rayonunun Sarvanlar kəndindən Hikmət Orucov: "Hörmətli cənab Prezident, düşmən ordusunun Azərbaycan-Ermənistan sərhədində atəşkəsi pozması, lakin igid oğullarımız tərəfindən geri oturdulması onlara növbəti dərs oldu. Mənfur qonşularımız susduruldu. Erməni rəsmilərinin öz itkilərini gizlətməsinə baxmayaraq, ordumuzun onlara vurduğu zərbə nəticəsində verdikləri böyük itkiləri hələ uzun müddət unutmayacaqlar. Cənab Prezident, Sizinlə və şanlı ordumuzla fəxr edirik. Əminik ki, Sizin rəhbərliyiniz, əsgərlərimizin zəfəri ilə torpaqlarımız düşmən tapdağından xilas ediləcək".

## <u>Rəsmi Tiflis inkar etdi:</u> Silahlar Gürcüstandan keçməyib



Gürcüstanın hakim Gürcü Arzusu Partiyasının üzvü, vitse-spiker Gia Volski Azərbaycan mətbuatının Ermənistana silah-sursatın ölkə üzərindən çatdırılmasına dair yaydığı məlumatlara münasibət bildirib. Xəbər verilir ki, o, jurnalistlərə açıqlamasında həmin informasiyaları şayiə adlandırıb. "Bu məlumatlar rəsmi deyil, bir konkret media tərəfindən yayılan şayiədir. Gürcüstanda da bu şayiəni təkrarlamağa sevinən KİV-lər var", - o qeyd edib.

## *Rauf Əliyev:* "Siyasi partiyaların bəyanatı milli birliyimizin gücləndirilməsi baxımından əhəmiyyətlidir"



"Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü və Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatlar ilə əlaqədar Azərbaycanda qeydiyyatda olan və fəaliyyət göstərən 43 siyasi partiya tərəfindən milli həmrəyliyə dair bəyanat qəbul edilib. Bu, Azərbaycanın siyasi həyatında ilk belə hadisədir. Siyasi partiyaların belə bir gündə birlik və bərabərlik nümayiş etdirməkəri, xalqın, dövlətin, Ali Baş Komandanın yanında olmaları hamıya nümunə olmalıdır". Bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyirlər. Partiyalar xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyiblər.

"Fəaliyyətdə olan siyasi partiyaların tam əksəriyyətinin belə bir bəyanat qəbul etməsi ölkəmizdə mövcud olan milli birliyi, xalq iqtidar birliyini daha da möhkəmləndirərək, həm daxildə, həm də xaricdə mövcud olan anti-milli qüvvələrə vurulan zərbədir. Belə bir zamanda təxribatçıların və beşinci kolonun vəziyyəti gərginləşdirməyə çalışmalarının qarşısı dərhal və qətiyyətlə alınmalı, günahkarlar layiqli cəzalarını almalıdırlar"-deyə, R.Əliyev vurğulayıb.

# "Milli Şura" - qeybətxana və təhqirbazlıq mərkəzi

***Tərbiyəsizlik, riyakarlıq, rüsvayçılıq və daha nələr-nələr... "Milli Şura"nın koordinasiya mərkəzinin növbəti şousu ictimailəşdi və orada baş verənlər bir daha sübut etdi ki, "başbilənlərin" video-toplantılarının məqsədləri yalnız və yalnız onlarla olmayanları hədəfə götürərək, təhqir atəşinə tutmaqdan ibarətdir. Əslində, bu, heç təəccüblü də görünmür.***




Çünki oradakılar daha əvvəlki "zoom" toplantılarında da qeybətxana və təhqirbazlıq mərkəzi olduqlarını isbatlayıblar. Məşədi İbad demişkən, bir növ adətkərdədirlər... Beləliklə, onların növbəti hədəfləri Turan İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev və ReAL partiyasının funksioneri Natiq Cəfərli olub. Bəri başdan onu da qeyd edək ki, hər iki şəxs AXCP sədri Əli Kərimli tərəfindən "qatı düşmən" elan edilib və onun, eyni zamanda "Milli Şura"nın siyasi orientasiyasını bölüşmədiklərinə görə söyüşlərə məruz qalırlar. Bunun üçün isə sözügedən yığnağa heç bir çətinlik yoxdur, Məşədi İbad demişkən, bir növ adətkərdədirlər... Ancaq məsələnin tam məğzinə keçməmiş onu da qeyd edək ki, növbəti dəfə Ə.Kərimlinin "blokada" şousu ifşa olunub. Çünki onlar toplaşar-toplaşmaz Vidadi Mirkamal digər iştirakçılara Ə.Kərimlini qoşub-qoşmaması ilə bağlı müraciət etsə də, Vahid Məhərrəmli "Yox, qoşma, qoşma" deyərək, "blokada" şousunun davam etməsini tövsiyə edib. Amma fakt budur ki, AXCP sədri istədiyi vaxt internetə qoşulur, üstəlik fikirlər də bildirir. Bu, öz yerində... Bu məsələnin qarşıda hələ çox "tüstü" verəcəyi gözlənilir birinci zərbə Turan İA-nın rəhbəri M.Əliyevə yönəlir. Fransada oturub "siyasət yürüdən" Qənimət Zahid M.Əliyevi ReAl partiyasının sədri İlqar Məmmədova bənzədib və kopiyası olduğunu bildirib. Söz yox ki, onun fikirlərini Vidadi Mirkamal və Gültəkin Hacıbəyli dərhal dəstəkləyiblər. Məsələn, V.Mirkamal M.Əliyevi "mövqesiz adam" adlandırıb. G.Hacıbəyli də dərhal "Vidadi bəylə razıyam, mövqesiz adamdır. Amma tam İlqar Məmmədovun eynisi deyil hələ ki. Hələ ki...", deməklə guya fikirlə tam razılaşmadığını ortaya qoyub. Göründüyü kimi, artıq buradan da açıq-aydın şəkildə M.Əliyevin "Milli Şura" ilə ciddi fikir ayrılığı olması faktı üzə çıxıb və bu məsələnin qarşıda hələ çox "tüstü" verəcəyi gözlənilir. Amma və lakin ReAL sədri İlqar Məmmədovun, yaxud M.Əliyevin də cavablarını səbirsizliklə gözləyirik əlbəttə ki... "Milli Şura" qeybətxanasının təhqirbazlarının süddən çıxmış ağ qaşıq olmadıqlarını bütün el-aləm bilir, elə özəri də! Amma əsas məsələ və təhqirlər birbaşa ReAL-ın idarə heyətinin üzvü, aparıcı funksionerlərindən olan N.Cəfərliyə doğru yönəlir. Nədir ki, N.Cəfərli sətiraltı ifadələrlə təmsil olunduğu partiyadan istefa verənləri sərt şəkildə və ağır tonda tənqid edib. Maraqlıdır ki, N.Cəfərlini "tərbiyəsiz" adlandıran "Milli Şura"nın koordinasiya mərkəzinin "başbilənləri" özləri təhqirlərə yol verərək, onun sağına-soluna söyüş yağdırıblar. Diqqət yetirək - Gültəkin Hacıbəyli : "Natiq Cəfərli tərbiyəsiz, iyrənc, murdar, şərəfsiz, alçaq, ən pis sözlərə layiq adamdır". Vidadi Mirkamal, Vahid Məhərrəmli, Qənimət Zahid: "Şərəfsiz və tərbiyəsiz adamdırlar... Göründüyü kimi, fakt ortadadır və bu gün onların özlərini hələ də ciddi siyasi fiqur hesab etmələri kənardan çox gülünc görünür. Gülünc və rüsvayçı... Hər halda, "Milli Şura" qeybətxanasının təhqirbazlarının süddən çıxmış ağ qaşıq olmadıqlarını bütün el-aləm bilir, elə özəri də!

***Rövşən RƏSULOV***

# "Azərbaycanın işğal olunmuş ərazilərini azad etmək hüququ var"



"Azərbaycanın öz ərazilərini Ermənistanın işğalçı hərbi birləşmələrindən azad etmək hüququ var. Bu, BMT-nin 51-ci maddəsində, BMT-nin Təhlükəsizlik Şurasının qərarlarında öz əksini tapmışdır". Bu sözləri SİA-ya açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib. Onun sözlərinə görə, Dağlıq Qarabağ ətrafında aparılan danışıqlar ola bilsin ki, bir müddət dayandırılsın, buna səbəb də məhz Ermənistan tərəfinin əl atdığı son təxribatlardır: "Artıq açıq-aşkar şəkildə aydın məsələdir ki, Ermənistanın Baş naziri Nikol Paşinyan arazi güzəşti etmək fikrində deyil, belə olan təqdirdə də beynəlxalq təşkilatlar və həmsədr ölkələr qarşısında bu məsələni qətiyyətlə qaldırmalıyıq. Əgər Ermənistan beynəlxalq hüquqla tələb olunan torpaqları geri qaytarmaq istəmirsə, o zaman danışıqların davam etdirilməsinin əsas məqsədi nədir? Biz artıq birneçə dəfə qeyd etmişik ki, Azərbaycanın öz ərazilərini qeyri-Azərbaycan hərbi birləşmələrindən, daha doğrusu torpaqlarını işğal etmiş şəxslərdən və hərbiçilərdən azad etmək hüququ var. Bu, BMT-nin 51-ci maddəsində, BMT-nin Təhlükəsizlik Şurasının qərarları və digər təşkilatların, qətnamələrində və sənədlərində də öz əksini tapmışdır".

Politoloqun fikrincə, Rusiya ilə Dağlıq Qarabağ danışıqlarına start vermək lazımdır və görüşlərdə Rusiya qarşısında məhz, işğal altında olan torpaqlarla bağlı məsələ qaldırmaq lazımdır çünki, bu illər ərzində aparılan danışıqlar və Nikol Paşinyanın gəlişindən sonra aparılan danışıqlar bir daha onu göstərdi ki, Ermənistan və Azərbaycan arasındakı danışıqların nəticəli bitəcəyinə ümid çox azdır və regionun kuratoru olan ölkələr də bu məsələ ilə bağlı qəti və praktiki addımlar atmaq lazımdır: "Hazırda, faktiki olaraq atəşkəsdir. Baş nazir Nikol Paşinyan isə bu atəşkəs vaxtı Ermənistanın daxilində öz siyasi, dırnaqarası "islahatlarını" həyata kerçirməyə sərf edir. Hərhalda biz görürük ki, Ermənistan daxilindəki proseslər Nikol Paşinyandan asılı deyil və bu, təkcə ayrı-ayrı şəxslərdən də asılı deyil. Ermənistanda baş verən hadisələr birbaşa onların havadarlarından asılıdır. Eyni zamanda bu gün erməni xalqı açıqca demək lazımdır ki, torpaqlarla bağlı kompromisə hazır deyil".

# "Ermənistan cəmiyyəti o qədər zəifdir ki..."




"Metsamorun AES-in vurulması məsələsi birinci dəfə deyil ki, müzakirə mövzusudur. Hətta vaxt olub ki, Ermənistanın bir vaxtlar müdafiə naziri olan Seyran Ohanyan Metsamorun vurulmasını gündəliyə gətirib. Biz zaman biz ona, Seyran Ohanyana cavab verdik, hansı ki, Mingəçeviri vurmaq məsələsini də ortaya atmışdı. O zaman bu məsələ erməni mətbuatında yayıldı. İndi də, təxminən bir il bundan qabaq Ruben Zərgəryan var idi Dağlıq Qarabağın Rusiyadakı qondarma nümayəndəsi, hansıki ara-sıra o da yazır. O vaxt erməni tərəfindən Ohanyan, biz tərəfdən də mən bu məsələni qaldırmışdıq. O vaxt bu məsələ geniş rezonans yaratmadı. Çünki, o vaxt Ermənistan cəmiyyətində indiki ilə müqaisədə müəyyən qədər güc var idi, özlərinə müəyyən mənada inam var idi." Bu sözləri SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.

Mərkəzin direktorunun sözlərinə görə, indi Ermənistan cəmiyyəti o qədər zəifdir ki, adicə hədədən qorxur.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlının Metsamor AES-lə bağlı verdiyi cavab çox düzgün cavabdır, çox yerində olan cavabdır. Amma Vaqif Dərgahlının verdiyi Bəyanat ermənilərin hədsiz dərəcədə zəif olduğunun üstünü açdı. Ona görə, yenə də deyirəm, Ermənistan tərəfdə bu ideyanın bir tərəfində müdafiə naziri dayanmağına baxmayaraq, rezonans yaratmadı, amma indi bizim, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəhbərinin deməyi rezonans yaratdı. Bax, burada vacib məsələ budur.

Biz Metsamor AES-i vura bilərik və haçan da vurulacaqsa bunun dəqiq hesablamaları var. Bu AES vurulanda Naxçıvana necə təsir ola bilər, Türkiyəyə necə təsir ola bilər, mən bu məsələləri bilirəm və mən elə başa düşürəm Azərbaycanda bəlkə də elə ən az bilənlər sırasındayam və lazım olan adamların hamısı da bilir. Yəni, bu Ermənistan cəmiyyətində xoflanmanın, həyəcanlanmanın dərəcəsidir. Bu həm də Psixoloji cəhətdən Ermənistan cəmiyyətinin geri getməsinin nəticəsidir.

Metsamorla bağlı digər bir parametr də odur ki, Vaqif Dərgahlının məlum bəyanatından sonra Moskvadakı ermənilər, hansıki, qeydiyyatdan keçiblər, təyyarəyə miniblər, Yerevana gəlmək istəyirlər, artıq gəlməkdən imtina etdilər. Ermənistanın özündən də artıq axın gözlənilir, məhz Metsamor AES-ə görə. Yəni bu Bəyanat elə bu prizmadan qiymətləndirilməlidir.

Ermənilər gedib beynəlxalq aləmə şikayət edəcəklər, eləsinlər. Beynəlxalq aləmdə onlara deyiləcək ki, iki variant var Dağlıq Qarabağ tənzimlənməsi ilə bağlı və beynəlxalq aləmi ələ salmaqdansa gedin o variantları biri ilə məşğul olun. Ona görə də ermənilər səhv yoldadırlar. Onlar Metsamor AES-i beynəlxalq aləmə çıxarmaqla, özlərinə təzyiqi artırmış olurlar", deyə Mübariz Əhmədoğlu bildirib.

***İnam Hacıyev***

# Qırğızıstan KİV-ləri Ermənistanın son təxribatlarından bəhs edən informasiyalar yayıblar

Azərbaycanın Qırğızıstandakı səfirliyi ölkədə akkreditə olunmuş bütün xarici ölkələrin səfirliklərinə, beynəlxalq təşkilatların nümayəndəliklərinə və Qırğızıstanın KİV-lərinə Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz istiqamətində törədilən təxribatla bağlı məlumatlar toplusu göndərib.

AZƏRTAC xəbər verir ki, eyni zamanda, ölkəmizin Tovuz rayonunun Dondar Quşçu və Ağdam kəndlərində son günlər erməni silahlı qüvvələrinin mülki yaşayış yerlərini atəşə tutması ilə bağlı KİV-lərə foto və video məlumatlar göndərilib.

Məlumatlar toplusunda deyilir: "Bu ilin 12 iyul tarixində Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşlərindən istifadə edərək hücuma keçməyə cəhd ediblər.

Düşmən qüvvələrin hücumunun qarşısı cavab tədbirləri ilə alınıb. Döyüş nəticəsində ölənlər və yaralananlar var. Ermənistan silahlı qüvvələrinin bu təxribatçı əməli təcavüzkar Ermənistan rəhbərliyinin son zamanlar bölgədə gərginliyin artmasına xidmət edən fəaliyyət və bəyanatlarının davamı kimi nəzərdən keçirilməlidir. Təcavüzkar siyasətini ölkənin təhlükəsizlik strategiyasında əks etdirən Ermənistan münaqişənin nəticələrini aradan qaldırmaq, işğalçı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq əvəzinə, yeni mövqelər ələ keçirmək, gərginliyi daha da artırmaq istəyir. Ermənistanın bu təxribatı Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların mahiyyətini ciddi şübhə altına alır. Ermənistan bu kimi təxribatçı əməlləri ilə üçüncü ölkələri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə çalışır. Lakin beynəlxalq ictimaiyyətin Ermənistanın təcavüzkar siyasəti ilə bağlı tutduğu mövqe həmiya bəllidir. Düşmən qüvvələrinin bütün təxribatlarının qarşısı bundan sonra da layiqincə alınacaq. Vəziyyətin gərginləşməsinə xidmət edən bu kimi təhrikedici əməllərə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür".

Qırğızıstanın "Asiya TV" televiziya kanalı, "Veçerniy Bişkek" qəzeti, populyar 24.kg, manas.news xəbər portalları, Avropa İttifaqında qeydiyyatdan keçmiş theworldnews.net beynəlxalq xəbər agentliyi Ermənistan silahlı qüvvələrinin son təxribatını pisləyib. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistan üzərinə düşdüyü qeyd olunub. Eyni zamanda, "Komsomolskaya pravda" qəzetinin Qırğızıstan variantının internet səhifəsində, akipress.org və Centralasia.media xəbər agentlikləri, kant.kg, for.kg, sayasat.kg xəbər portallarında Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz istiqamətində törədilən təxribatla bağlı səfirliyin məlumatlar toplusu və həqiqəti əks etdirən digər materiallar əks olunub.

# "Azərbaycanda yüksək vətənpərvərlik, həmrəylik vəhdəti yaşanır"

***Bu gün Azərbaycanın hər nöqtəsində yürüş var və Azərbaycan xalqı öz torpaqlarını azad etmək üçün öz qeyrəti ilə nümayiş etdirir. Bu, çox böyük örnəkdir. Ən önəmli örnək isə, "Torpaq, uğrunda ölən varsa Vətəndir" deyən əzm və şücaət göstərə əsgərlərimizin torpaq uğrunda qəhrəman və şəhid olmağı özlərinə fəxr bilir və bildilər də... Torpaq, uğrunda ölən varsa Vətəndir. Həmişə olduğu kimi, işğalçı ölkə Ermənistan silahlı qüvvələri növbəti - iyulun 12-də Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətmiş və bununla da bir daha öz faşist xislətini nümayiş etdirdi.***



Lakin ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev düşünülmüş siyasəti, güclü Azərbaycan Ordusunun təxirəsalınmaz və qətiyyətli hücumu nəticəsində erməni faşistlərinin riyakar və çirkin hücumunun qarşısı cəsarətlə alındı, düşmənə layiqli cavab verildi. Və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan-xalq, ön və arxa cəbhə birliyi, xalq-iqtidar-ordunun sarsılmaz birliyinin, yüksək vətənpərvərliyinin, həmrəyliyi vəhdəti yaşanır.

### Bu çətin, mürəkkəb bir zamanda siyasi baxışlarını bir yana qoyaraq, Ali Baş Komandanın yanında olduqlarını bəyan etməklə bir daha milli həmrəylik göstərdilər

Bu gün fərəhləndirici haldır ki, bu çətin, mürəkkəb bir zamanda, Vətənimizin ağır günlərində respublikamızda fəaliyyət göstərən müxtəlif siyasi partiyalar və təşkilatlar da yüksək siyasi mədəniyyət nümayiş etdirərək, milli həmrəylik göstərərək, Ali Baş Komandanın yanında olduqlarını bəyan etdilər. Qəbul olunun milli həmrəylik bəyanatı Azərbaycan xalqının birliyinin əyani nümayişidir. 43 partiya sədrinin imzaladığı birgə bəyanatda birmənalı şəkildə Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəklədiklərini və Onun ətrafında sıx birləşdiklərini bəyan etdilər.

Təəssüf doğuran odur ki, hələ də xalq cəbhəsinin tör-töküntüləri isə öz çirkin əməllərindən əl çəkməyərək xalqın bu qələbə gününə kölgə salmağa, təxribat törətməyə çalışırlar. Lakin bu viruslar 27 ildən çox zamanda hələ də anlamırlar ki, heç bir xain qüvvələr, "beşinci kolon" xalq-iqtidar-ordu birliyini sarsıda bilməz. Çünki xalq müstəqil Azəyərbaycanımızın qurucusu Ulu Öndər Heydər Əliyevin və müasir müstəqil dövlətimizin qarantı möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının təmin edilməsinə, Qarabağın azad olunmasına əmindir. Və bu gün, həm də qürurverici haldır ki, iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası hər bir sahədə öz məsuliyyətini yetərincə dərk edərək ölkənin digər siyasi partiyalarının əksəriyyətini öz ətrafına, daha doğrusu milli maraqların ətrafına yığa bilmiş, Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatların qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyə, onun ətrafında sıx birləşməyə nail olmuşdur.

Lakin bu gün hələ də daxilimizdəki anti-milli qüvvələr, dövlət bşçımızın sözü ilə desək "ermənidən də pis"lər hələ də öz çirkin əməllərindən əl çəkmirlər. Dövlət başçımızın son təxribat hadisələri ilə bağlı çıxışı zamanı bildirmişdir ki, içimizdəki, "sapı özümüzdən olan baltaların" pozuculuq fəaliyyətləri və açıqlamaları xalqımızın bütövlüyünü poza, qüvvələrimizi dağıda bilməsə də, ölkə xaricində xalqımız və dövlətimizin imicinə ciddi zərbə vurmaları təəssüf doğurur. Doğrudur, təxribatın qarşısı alındı və bir daha nümayiş etdirildi ki, heç bir daxili və xarici siyasi güc, Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini şübhəyə ala bilməz. Çünki Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir, xalqını dinləyir, hər bir addımını onunla məsləhətləşir, gələcəyini onunla birlikdə planlaşdırır və həyata keçirir.

### Düşmənə qarşı mübarizədə ən vacib məsələ güclü milli iradə nümayiş etdirməklə həmrəyliyə nail olmaqdır

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində gərginlik hələ də qalmaqdadır. Bu isə, bölgədəki gərginliyin yeganə səbəbkarı kimi münaqişənin danışıqlar yolu ilə həllinə birbaşa əngəl törədir. Ancaq Ermənistan rəhbərliyi gec də olsa heç olmasa o savadsız başı ilə bir həqiqəti anlamalıdır ki, Azərbaycan ərazilərinin işğalı faktı ilə heç zaman barışmayacaq və torpaqlarımızın bir santimetri belə düşmən işğalı altında qalmayacaq.

Elə iyulun 12-də Azərbaycanla sərhədin Tovuz rayonu istiqamətində qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətsə də Azərbaycan Ordusu iyulun 13-14-də düşmənə sarsıdıcı zərbələr endirərək, onlarca erməni hərbçi məhv edildi, düşmənin sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın olundu.

Ali Baş Komandanın da dediyi kimi, düşmənin hərbi obyektləri, kazarmaları, dayaq məntəqələrinin məhv edilməsi ilə bağlı yayılan videogörüntülər Azərbaycan Ordusu tərəfindən keçirilmiş əməliyyatların hələ cüzi bir hissəsidi. Beləliklə, Tovuz istiqamətində baş verən qısa döyüşlərdə Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi.

### Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir

Dövlət başçımız vidiomüşavirədə ordumuzun təxribata cavabını belə dəyərləndirdi: "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

Ali Baş Komandanın qətiyyətlə dediyi kimi: "Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz də. Baş vermiş toqquşmalar və qanlı döyüşlər isə Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmiş oldu".

Bir sözlə, Azərbaycan güclü dövlətdir və təzyiq göstərmək, onu öz yolundan döndərmək mümkün deyil, ola da bilməz. Çünki Azərbaycan həm də öz yolu, aydın mövqeyi, qətiyyətli və müstəqil siyasəti olan dövlətdir. Buna görə antiazərbaycançı dairələr və onların ələtisi olan satqın və cinayətkar Əli Kərimli kimilər dərk etməlidirlər ki, Azərbaycana qarşı həyata keçirdikləri planların heç biri Azərbaycan dövlətinin gücü və sarsılmaz xalq-iqtidar birliyinin qarşısında istənilən riyakar planı məqsədinə çatmayaraq iflasa uğrayacaq.

***Əli Hüseynov,***
***YAP Ağsu rayon təşkilatının sədri***

## İbrahim Kalın: Azərbaycanın yanında olduğumuzu çox açıq və qəti şəkildə bildirmək istəyirik



Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın Azərbaycan-Ermənistan sərhədində yaşanan son hərbi təcavüz aktı ilə bağlı bir daha açıqlama verib. SİA-nın məlumatına görə, İbrahim Kalın NTV-yə müsahibəsində bildirib ki, Azərbaycanı təzyiq altında saxlamaq istəyirlər: "Diqqətdə olan əsas məsələ işğaldır, Ermənistanın Dağlıq Qarabağı işğalına son qoymaqdır. Bu məsələdə Azərbaycanın yanında olduğumuzu çox açıq və qəti şəkildə bildirmək istəyirik. Azərbaycanla hərbi əməkdaşlığımız onsuz da var".

## Ermənilər Azərbaycanın Avstraliyadakı səfirliyinə qarşı vandalizm aktı törədiblər

Avstraliyada yaşayan ermənilər tərəfindən Azərbaycanın bu ölkədəki səfirliyinə qarşı vandalizm aktı törədilib. AZƏRTAC xəbər verir ki, iyulun 18-də yerli vaxtla səhər 6:50 radələrində bir qrup naməlum şəxs qanunsuz olaraq səfirliyin inzibati binasının ərazisinə daxil olaraq, təxribatçı əməllərə yol verib. Sonradan bu əməllərin "Erməni Gənclər Federasiyası"nın üzvləri tərəfindən törədildiyi üzə çıxıb. Səfirlikdə yaşayan insanların yatmasından istifadə edən qorxaq ermənilər sübh vaxtlarında səfirliyin inzibati ərazisinə daxil olaraq, böhtan və yalan xarakterli bannerlərini yerləşdiriblər.







Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Ramil Qurbanov AZƏRTAC-ın xüsusi müxbirinə bildirib ki, təxribatçılar məhz Azərbaycanın xaricdəki diplomatik missiyalarına qarşı son zamanlar ermənilərin hazırladığı təxribatların qarşısının Azərbaycan diasporu tərəfindən qətiyyətlə alındığını nəzərə alaraq, qorxaqcasına sübh saatlarında bu vandal əməli həyata keçirərək qaçıblar.

R.Qurbanov vurğulayıb ki, təxribatçılar sonradan öz hiyləgər və barbar "şücaətlərini" sosial media hesablarında paylaşmış və öz həmmillətlərini Azərbaycan səfirliyinə qarşı təxribatçı əməllərə təşviq etmiş, hətta bəziləri səfirliyin binasına yandırmağa belə çağırmaqdan çəkinməmişlər. Qeyd olunan təxribatçı əməl barədə Avstraliyanın əlaqədar qurumlarına dərhal məlumat verilib və hazırda hadisə ilə bağlı Avstraliya Federal Polisi tərəfindən araşdırma aparılır.

## DİN sosial şəbəkə istifadəçilərinə müraciət etdi

Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkə istifadəçilərinə müraciət
edib. DİN-dən SİA-ya verilən məlumata görə, müraciətdə deyilir: "Face-
book sosial şəbəkəsində Azərbaycan Respublikasının Daxili İşlər nazi-
ri, general-polkovnik Vilayət Eyvazovun adına naməlum şəxslər tərəfin-
dən saxta səhifə açılaraq orada təhrif olunmuş yanlış məlumatlar yerləş-
dirilib. Bununla əlaqədar sosial şəbəkə istifadəçilərinin nəzərinə çatdı-
rırıq ki, qeyd olunan səhifə saxtadır və oradakı paylaşımlar kimlərinsə
uydurmasından başqa bir şey deyil. Məlumat üçün bildiririk ki, Daxili İş-
lər Nazirliyinin sosial şəbəkələrdə rəsmi səhifələri mövcuddur və bun-
dan başqa Nazirliyin ümumiyyətlə heç bir əməkdaşının sosial şəbəkə-
lərdə səhifəsi yoxdur.
Odur ki, vətəndaşlarımızdan təxribat məqsədi ilə yaradılan belə saxta
səhifələri izləməmələrini, yalnız DİN-in sosial şəbəkələrdəki rəsmi səhi-
fərindən istifadə etmələrini xahiş edirik. Məlumat üçün bir daha internet
istifadəçilərinin diqqətinə çatdırırıq ki, ictimaiyyətlə əlaqələrin daha da
genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin yaxşı-
laşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə yaradıl-
mış rəsmi səhifələri artıq dörd ilə yaxındır fəaliyyət göstərir. Vətəndaşlar
DİN-in rəsmi www.mia.gov.az saytından "Facebook", "Instagram", "Twit-
ter" və "YouTube" hesablarına keçid işarələrindən istifadə edərək, yaxud
aşağıdakı linklər vasitəsilə həmin səhifələrə daxil ola və abunə yazılmaq-
la məlumatları əldə edə bilərlər: https://twitter.com/polisazerbaycan
https://www.instagram.com/polisazerbaycan/ https://twitter.com/polisa-
zerbaycan https://www.youtube.com/polisazerbaycan"

# Zərifə Quliyeva: "Ali Baş Komandanımızın iradəsi qarşısında işğalçı ölkə çox aciz görünür"



***Sarsılmaz ordu, məğlub düşməndir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. İyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyətin gərginləşməsi və Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını pozaraq Tovuz rayonu istiqamətində yaşayış məntəqələrimizi artilleriya atəşinə tutması təcavüzkar ölkənin ağırlaşan iqtisadi vəziyyətini diqqət mərkəzindən yayındırmağa çalışmaqdan başqa bir əhəmiyyət kəsb etmir. Lakin təcavüzkar ölkənin etdiyi bu təxribatları həmişə olduğu kimi, bu dəfə də Azərbaycan Ordusunun gücü, əsgərlərimizin əzm və rəşadəti nəticəsində böyük qələbə ilə nəticələnib və bu gün də məğlubiyyət Ermənistanın, qələbə Azərbaycanın olub! İstər Aprel döyüşlərində, istər Naxçıvan əməliyyatında və bugünkü Tovuz istiqamətində gedən döyüşlərdə olduğu kimi Azərbaycan Ordusunun gücü, Azərbaycan əsgərinin əzm və rəşadəti nəticəsində son döyüşdə də qələbə bizim olacaq.***

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da Azərbaycan Ordusunun gücünə, Azərbacyan əsgərinin əzm və rəşadəti ilə bu gün də qələbənin bizim olduğunu demişdir: "Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Deməliyəm ki, son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı".

### "Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar"

Dövlətimizin başçısı vidiomüşavirədə çıxışı zamanı bildirib ki, bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir: "Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır. Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətlə bağlı məlumat artıq verildi və bu gün operativ vəziyyət bizi tamamilə qane edir. Biz istənilən vaxtda, lazım olan vaxtda bu günlərdə yaradılmış əlavə imkanlardan, o cümlədən döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözümüzü deyəcəyik. Aprel döyüşlərində olduğu kimi, mənfur qonşu bu dəfə də ən çirkin əməllərə əl atdı. O da nədən ibarətdir? Bizim kəndlərimizi atəşə tutdu və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Bu, bir daha onu göstərir ki, Ermənistan faşist dövlətdir".

### Ermənistan BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə səs verməsi bu ölkənin iç üzünü və mahiyyətini bir daha açdı

Bu bir həqiqətdir ki, Ermənistan Azərbaycanın uğurlarına daima paxıllıq edib, öz çirkin xislətini nümayiş etdirib. Elə işğalçı ölkənin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə səs verməsi bu ölkənin iç üzünü və mahiyyətini bir daha açmaqla bir daha sübut etdi ki, bu qərəzli yanaşmanın kökündə bu ölkədə hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiyadır, Azərbaycan dövlətinə, Azərbaycan xalqına nifrətin təzahürüdür. Bütün dünya dövlətləri bir daha şahid oldu ki, Azərbaycan Prezidenti tərəfindən bu təşəbbüsü irəli sürməkdə məqsədi COVİD-19-la mübarizədə vahid yanaşmanın tətbiqinə, ölkələrin özlərinə qapanmamasına, inkişaf etmiş ölkələrin ağır vəziyyətdə olan ölkələrə kömək göstərməsinə nail olmaq idi. Və o da bəllidir ki, bu gün pandemiyadan ən çox zərər çəkən ölkələrdən biri kimi Ermənistandır. Bu təşəbbüsün reallaşması üçün 97 səs lazım olmuş, ancaq 130-dan çox ölkənin səsi əldə edilmişdi. Və belə bir qlobal miqyaslı təşəbbüsün Azərbaycan tərəfindən irəli sürülməsi və dəstəklənməsi bir daha beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Azərbaycan bu rəğbəti uzun illər həyata keçirdiyi ardıcıl xarici siyasət hesabına, prinsipial, müstəqil mövqe sayəsində qazanıb. Həmçinin, onu da qeyd edim ki, bu doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilən Azərbaycana yenidən böyük beynəlxalq dəstəyin verilməsi bir daha ölkəmizə olan inam və etimadın göstəricisidir. Lakin "demokratiya" və "rifah" adı ilə küçədən hakimiyyət başına gətirilən Paşinyan kimi savdsız faşist xisləti təcavüzkar ermənilərin ümidlərini doğrultmadığı üçün hakimiyyətlə xalq arasında yaranmış qarşıdurmanı ört basdır etmək üçün sərhəd bölgəsində təxribat törətməyi çıxış yolu seçdi. Bununla da həm erməni ictimaiyyətinin diqqətini yayındırmağa, həm də Azərbaycanın uğurlarına, nailiyyətlərinə kölgə salmağa cəhd etmək istədi. Amma hər dəfə olduğu kimi, bu dəfə də alınmadı. Çünki 2016-cı il aprel təxribatlarından sonra Ermənistanı növbəti ağır məyusluq gözləməsi labüd idi. Əgər aprel məğlubiyyətindən sonra Sarkisyan hakimiyyətdən qovulmuşdusa, inanıram ki, Tovuz təxribatından sonra Paşinyan da hakimiyyətdən qovulacağı realdır.

### "Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir"

Deyir zaman hər şeyi üzə çıxarır və hər kəs də gec-tez layiq olduğu cəzanı alır. 27 il "müxalifətdəyəm" deyənlərin əqidəsi, məsləki, satqınlığı, əxlaqsızlığını zaman, özü də dünyanı ağuşuna alan koronavirusun baş aldığı bir dövrdə elə üzə çıxardı ki, virus qaldı bir yana, AXCP-nin Rəyasət Heyətinin "zoom" iclasında Əli Kərimli başda olmaqla müxalifətin, xüsusilə də müsavatçılara qarşı söyüş və təhqirlərə yol verməleri ilə bir daha cəbhəçilərin nifrətini göstərdi və bu da boğazdan yuxarı "milli demokratların" siyasi məhvi olacaqının labudi idi". Bu gün təcavüzkar Ermənistanın törətdiyi təxribatlarına həmişə dəstək verən radikal müxalifət, xüsusilə də AXCP sədri Əli Kərimli xalqın son təindi iş çətinə düşən kimi, "dövlətin yanındayıq" deməklə iblis xislətindən əl çəkmədiyini nümayiş etdirmədimi? Ə.Kərimli belə şeytan oyunlarını çox edib. Belə ki, hakimiyyətdə olduqları bir il müddətində Surət Hüseynovun dar ağacından xilas olmaq üçün Ulu Öndər Heydər Əliyevdən kömək istədilər, bununla xilas oldular, sonra aprel döyüşləri zamanı və bu gün növbəti oyun. Və minlərlə xalqın nümayəndəsi əldə etdiyimiz qələbəni, dövlətinə dəstəyini, öz ordusuna, onun Ali Baş Komandanına dəstəyini ifadə edən yürüş etdi. Nümayiş sakit, polisin heç bir müdaxilə etmədiyi şəraitdə keçdi. Xalq axını Şəhidlər Xiyabanından Milli Məclisin önündəki meydana yönəldi və orada birləşdi. Lakin "Sapı özümüzdən olan bu küt baltalar" yenə də son təxribatlarda qələbəmizi qeyd edən minlərlə xalq yürüşünə ləkələmək istəyərək Milli Məclisin binasına daxil olaraq öz dağıdıcı niyyətli olduqlarını nümayiş etdirdilər. Baş vermiş hadisə sadə cinayət əməli deyil! Bu hər şeydən öncə bağışlanılmaz cinayətlər idi, xüsusi hazırlanmış qüvvələrin dövlətimiz əleyhinə planlı addımı idi. Ancaq ümumxalq həmrəyliyinə qarşı pozucu mövqe tutanlar bilməlidirlər ki, Azərbaycan xalqının həmrəylik və birliyini heç bir qüvvə poza bilməz. Çünki xarici təcavüzə qarşı ümumxalq həmrəyliyinin ən güclü dayağı, məhz Azərbaycan xalqının özüdür, yetkin siyasi qüvvələrdir və vətənpərvər gənclərdir. Dövlət başçımız hökumət üzvləri ilə keçirdiyi virtual müşavirədə ordumuza dəstək məqsədilə təşkil edilən aksiyadan danışaraq bildirdi ki, bu bir daha Azərbaycan xalqının ağır günlərdə bir nöqtəyə vura bildiyini göstərir: "Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda deyib.

Dövlət başçısı bildirib ki, mitinq-yürüş zamanı baş verən təxribat törədənlərin ermənidən pis olduğunu və cəinayətkarların ciddi cəzalandırılacağını deyərək onlara bunun axırıncı dərs olacağını deyib: "Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır. Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır. Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

Göründüyü kimi, bu gün xalq-hakimiyyət birliyi monolit xarakter kəsb edir. Xalq öz Ali Baş Komandanının arxasındadır. Ona tam inanır və güvənir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu tarixi sınaqdan da şərəflə çıxacağımıza tam əminik! Və bolşevizm təfəkkürlü bu satqınlar bilməlidirlər düşmən qoltuğuna sığınmaqla xalqa, dövlətə əsl xain olduqlarına və nə zamansa, bütün bunlara görə mütləq, amma mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Nəsimi YAP təşkilatı İdarə heyətinin üzvü, "Modern ailə və inkişaf " İctimai Birliyinin sədri***

# Kimin dost, kimin isə "dost" olması...

*Bunu gözləməzdik Gürcüstan, yaxud ayıb olsun, Serbiya!*

***Atalarımız od olmasa, tüstü çıxmaz deyiblər. Bu atalar məsələni xatırlatmağımın isə səbəbi var. Azərbaycan əsrlər boyu qonşuluq və eyni zamanda, sərhədlərindən uzaq olan ölkələrə qarşı isti münasibət nümayiş etdirməsi ilə tanınıb. Elə indi də, etibarlı tərəfdaş, strateji müttəfiq, sözündən dönməyən, ya da sözünün sahibi və o cümlədən, bir sıra bu kimi münasibətlərdə Azərbaycan dövləti daim vədinə sadiq qalan ölkə olaraq tanınır. Amma təəssüf ki, zaman-zaman bizə haqq elədiyimiz münasibət, yardım əli uzatdığımız ölkələr tərəfindən göstərilmir. Biz dəfələrlə xainliyin, kürəkdən saplanan xain bıçağının acısını yaşamışıq. Yəqin ki, söhbətin nədən getdiyi eyhamını anladınız...***

## Azərbaycana "dostuq", "qardaşıq" deyən Anna Brnabiç ölkəsinin atdığı xain addımından heç utanırmı? ÇƏTİN..!

Bu günlərdə, xüsusilə Tovuz istiqamətində düşmən təxribatı ərəfəsində (!) Serbiyanın Gürcüstan vasitəsi ilə işğalçı Ermənistana minaatanlar göndərməsi xəbəri hər kəsi qeyzləndirdi. Çünki bu halın yaşanması istər-istəməz və sözün əsl mənasında xəyanət kimi qiymətləndirilə bilər. Bəlkə də, Azərbaycanın mayın 20-də koronavirus pandemiyası ilə mübarizə məqsədi ilə Serbiyaya göndərdiyi dava-dərmanlar və s. vəsaitlər hələ də istifadə edilməkdədir və belə bir anda Serbiyanın istər düz, istərsə də əyri yollarla təcavüzkar ermənilərə azərbaycanlıları atəşə tutmaq üçün silah göndərməsi acı təəssüf deyil, məhz hiddət, qəzəb oyadır. Artıq belə qənaətə gəlmək olar ki, Ermənistan ordusunun Azərbaycanla sərhəddə iyulun 12-dən başlamış və dörd gün davam edən xain təcavüz əməlinə əvvəlcədən hazırlıq görülüb və bu, təkzibolunmazdır.

Başqa tərəfdən, Azərbaycanın Serbiyaya koronavirus pandemiyası ilə mübarizə üçün humanitar yardım göndərdiyi təyyarə Belqrad aeroportunda eniş etdikdən sonra, bu ölkənin baş naziri Anna Brnabiç yardımı Azərbaycan-Serbiya dostluğunun təzahürü kimi dəyərləndirmişdi. İQTİBAS: "Bu, heç vaxt unutmayacağımız dostluğun təzahürüdür. Azərbaycan 2014-cü ilin daşqınından sonra Serbiyaya ilk yardım etmiş ölkə idi. Məhz bu gün, 2014-cü il mayın 19-da Serbiyaya Azərbaycandan yardım yükü gətirən ilk təyyarə gəldi".

Yaxşı, bəs bu bəyanatı, münasibəti və yaxud sözü, ifadəni necə anlayaq, necə başa düşək? Bütün bunlardan sonra belə bir bəyanatın "xalaxətrinqalmasın" tipli olmadığına necə inanaq? Və ya (!) bunu siyasi polyaçilik adlandırmayıb, ona başqa hansı adı verək??? Azərbaycana "dostuq", "qardaşıq" deyən Anna Brnabiç ölkəsinin atdığı xain addımından heç utanırmı? ÇƏTİN..!

## Erməniyə pəh-pəhlə minaatan xonçası göndərən serblər utanıb ar etsinlər ki...

Halbuki, Qarabağın işğal altında olması, Ermənistanın təcavüzkar siyasətini yaxşı anlayan Azərbaycan separat qurumları heç vaxt tanımadığını müxtəlif beynəlxalq tribunalarda bəyan edib. Gürcüstan üzərindən erməniyə pəh-pəhlə minaatan xonçası göndərən serblər utanıb ar etsinlər ki, Azərbaycan Kosovonun birtərəfli qaydada müstəqilliyini elan etməsini tanımayan



ölkələr arasında yer alır və birmənalı şəkildə Serbiyanın ərazi bütövlüyünə öz dəstəyini ifadə edib!

Artıq heç bir bəhanə, siyasi çıxış yolu ilə vurnuxma cəhdləri, üzrxahlıq bu faktın qarşısında rahat şəkildə əl-qol oynada bilməz. Şəhidlərimiz var, mülki vətəndaşlarımıza aid mülklər, evlər dağıdılıb, viran qoyulub. Rəsmi Bakı isə özünü bizə "dost-tərəfdaş" kimi təqdim edən ölkənin bu davranışı ilə bağlı diplomatik-siyasi kanallarla Belqraddan izahat tələb edəcək və edib də. Çünki Azərbaycan tərəfinin əlində sursatın alınması və daşınmasına dair bütün dəlillər, sənədlər var.

## Maraqlıdır, xanım Danitsa Veinoviç heç özünün də dediklərinə inanıbmı..?

20 iyul 2020-ci il tarixində Serbiya Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Danitsa Veinoviç Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirilib. Nazir müavini, Ermənistana silah göndərilməsi məsələsinin hər zaman, o cümlədən də ikitərəfli əlaqələrimizin gündəliyində duran həssas bir mövzu olduğunu vurğulayıb. Bu xüsusda, Serbiya tərəfinin Ermənistanın işğalçı siyasətinə və Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən təcavüzünə dəstək xarakteri daşıyan qeyri-dost addımının Azərbaycan xalqında və rəhbərliyində dərin təəssüf və acı məyusluq doğurduğunu bildirilib.

Serbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili xanım Danitsa Veinoviç isə qeyd olunan məsələlərlə bağlı məlumatının olmadığını (???!!!) söyləyib, məlumatları Serbiya tərəfinə çatdıracağını (???!!!) vəd edib, baş vermiş bu hadisələrdən "təəssüf hissi" keçirdiyini və bu hadisələrin Serbiya-Azərbaycan strateji tərəfdaşlıq və dostluq münasibətlərinə xələl gətirməyəcəyinə ümidvar olduğunu qeyd edib. Maraqlıdır, xanım Danitsa Veinoviç heç özünün də dediklərinə inanıbmı..? Bu yerdə ona və ölkəsinə bir Azərbaycan vətəndaşı, yaxud jurnalist olaraq, şəxsi münasibət fonunda izhar edə bilərəm: "Ayıb olsun, Serbiya!". Çünki belə dostluq dırnaqarası dostluq kimi qiymətləndirilə bilər, lap elə yazılı dillə ifadə edək - "dost" Serbiya...

## Cavaxetiyada erməni cəlladının büstünü sökdürə bilməyən gürcü hökuməti...

Gürcüstanın bu məsələdə yer alması faktoru isə, əlbəttə daha çox üzücüdür. Azərbaycan dövlətinin çoxsaylı, hətta sayılbilinməz siyasi, iqtisadi, sosial və s. dəstəkləri baxımından bu gün dövlət kimi ayaqda qalan, təməlləri laxlamayan Gürcüstan son zamanlar hansı məzhəbə qulluq etdiyini heç özü də bilmir bəlkə də...

Hələ Keşikçidağ ətrafındakı məlum səlibçi, şovinistlik təxribatını qoyaq bir kənara, ermənilərin kompakt yaşadığı Cavaxetiya ərazisində vaxtilə azərbaycanlıların kütləvi soyqırımında iştirak etmiş, sonda isə gəbərdilmiş bir erməni cəlladının adi bir büstünü sökdürə bilməyən gürcü hökuməti indi hansı üzlə Azərbaycan dövlətinin qarşısında izahat verməyə hazırlaşır?!

Bu həmin cavax erməniləridirlər ki, ərazilərini "kiçik Ermənistan" adlandırırlar və bu gün-sabah oranı siz gürcülərdən qoparmaq üçün hərəkətə keçəcəklər. Siz isə, hələlik əsl dostluq münasibəti, qonşuluq münasibəti göstərən Azərbaycana arxadan xəncər saplamağa davam edin, görək haraya kimi gedib-çıxacaq...

Bu gün Gürcüstanda yaşayan soydaşlarımız - azərbaycanlıların sosial problemlərinin həlli istiqamətindəki boşluqları, xüsusilə Sadaxlı kəndinə hücumlar edib insanların mal-qarasını oğurlayan erməni çetələrinin qarşısının alınmaması kimi məsələləri də xatırlatmağın tam yeridir!

## "Bunu səndən gözləməzdik", desək də, artıq gözləməyə dəydiyini də düşünməyə başlamışıq, Gürcüstan!

Gürcüstanın hakim Gürcü Arzusu Partiyasının üzvü, vitse-spiker Gia Volski Azərbaycan mətbuatının Ermənistana silah-sursatın ölkə üzərindən çatdırılmasına dair yaydığı məlumatlara münasibət bildirməyinə bildirib və yenə də öz fikrimcə ifadə edərsəm, həyasızcasına (!) həmin informasiyaları "şayiə" adlandırıb.

"Bu məlumatlar rəsmi deyil, bir konkret media tərəfindən yayılan şayiədir. Gürcüstanda da bu şayiəni təkrarlamağa sevinən KİV-lər var", - o qeyd edib. Ancaq onun fikri söz yox ki, rəsmi bəyanat olaraq qiymətləndirilə bilməz. Gürcülər də buyursunlar diplomatik xalı üzərinə çıxsınlar və Azərbaycana izahat versinlər ki, onların belə bir xain addımda iştirakları nəyə əsaslana bilər? Azərbyacanın verdiyi hətta demək olar ki, çox ucuz qiymətə təqdim etdiyi enerji mənbələrinə görəmi? BTC, TANAP, BTQ kimi nəhəng layihələrin icrası üçün göstərdiyi təmənnasız yardımlarına görəmi? Abxaziya, Şimali Osetiya kimi separatçı respublikaları tanımadığına görəmi? Gürcüstanın ərazi bütövlüyünü bütün ali beynəlxalq təşkilatlarda dəstəklədiyinə görəmi? Nəyə görə, bir izah etsinlər lütfən...!!!

Gürcü deputat ha desin ki, şayiədir, amma Gürcüstanda bəzi telekanallar ermənilərə silah yardımı ilə bağlı xəbərləri bu gün də tirajlayır. Bu kimi hərəkətlərin olması isə bilavasitə Gürcüstan hakimiyyətinin onu illərdir ki, ayaqda saxlayan (!) Azərbaycana qarşı haqsızlıq etdiyinin göstəricisidir və belə vəziyyət Gürcüstanda həm azərbaycanlılar, həm də elə gürcülər arasında böyük narazılıq yarada bilər. Dost, qardaş dediyimiz dövlətə arxadan zərbə vurmaq isə birbaşa satqınlıqdır! "Bunu səndən gözləməzdik", desək də, artıq gözləməyə dəydiyini də düşünməyə başlamışıq, Gürcüstan!

***Rövşən NURƏDDİNOĞLU***

## "Azərbaycan torpaqlarını geri qaytarmaq üçün hər an hazırdır"



"Ermənilərin Azərbaycana qarşı hərbi təcavüzünü davam etdirməsi fonunda sonuncu təxribat hadisələri bir daha göstərdi ki, nə Azərbaycan dövlətinin, nə bizim cəmiyyətimizin, nə xaricdə yaşayan Azərbaycan diasporasının, nə də beynəlxalq təşkilatlardan və müxtəlif dövlətlərdən ibarət müttəfiqlər çevrəmizin Qarabağ problemlərinin həlli prinsiplərinə münasibətində yersiz kompromis və yaxud da geri çəkilmə məzmununda hər hansı bir dəyişiklik baş verməyib, əksinə sadaladağım bütün bu istiqamətlərdə Azərbaycanın mövqeyi daha da güclənib". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, fakt üçün xatırlamaq lazımdır ki, ermənilərin çoxdandır apardıqları təbliğatın əsas tezislərindən biri guya Azərbaycan xalqının müharibə etmək istəməməsi, müharibədən yayınması isə bağlı idi: "Ancaq sonuncu hadisələr fonunda baş verən təzahürlər və həm ölkənin daxilində, həm də xaricindəki dalğalanmalar ermənilərin Azərbaycan xalqının öz torpağı üçün döyüşməyə hazır olmadığı və istəmədiyi barədə təbliğatlarının nə qədər boş və cəfəng olduğunu bir daha nümayiş etdirib. Ümumiyyətlə hadisələrin ilk günlərindən Azərbaycanda ictimai entuziazm dalğası görünməmiş bir formada yüksəldi. Hətta qısa müddətdə orduya könüllü yazılan insanların sayı 10-20 minlərə çatdı. Cəmiyyətin bütün təbəqələrini təmsil edən insanlar, gənclər, yaşlılar, hətta Qarabağ müharibəsində canının bir hissəsini itirmiş qazilər və əlillər, veteranlar yenidən döyüş meydanına qayıdaraq Azərbaycanın haqqını müdafiə etməyə hazır olduqlarını bildirdilər".

Siyasi şərhçi bildirib ki, Tarixində bəlkə ilk dəfə idi ki, dünyada Azərbaycan diasporası özünün aktivliyini demək olar ki, yeni formalarda nümayiş etdirdi: "Avropanın elə bir ölkəsi yoxdur ki, orada Azərbaycanın diasporası və ətrafında birləşmiş bizimlə həmrəy olan digər xalqların nümayəndələri Azərbaycanın haqqı uğrunda qətiyyətli mövqe ortaya qoymasın. Bunun əksinə olaraq Ermənistanın özündə isə həm ordudan yayınma, həm ölkədən qaçış prosesləri başlayıb, həm də Ermənistanın ənənəvi müttəfiqləri sayılan ölkələrdə erməni diasporasının tanınmış nümayəndələri artıq Ermənistan dövlətinə qarşı mövqelərini ifadə etməyə başlayıblar. Fakt kimi Moskvada Marqarita Simanyanın, Kurqinyanın və başqalarının bunlara qarşı fikirlərinin Ermənistan mediasında başlanan anti-təbliğat kompaniyalarını göstərmək mümkündür".

A.Quliyev vurğulayıb ki, bir sözlə, Tovuz təxribatından sonra Azərbaycanın haqqlı mövqeyi ətrafında aktiv ictimai fəallıq dalğası Ermənistanın çoxdandır ki, dünya ictimai fikrində formalaşdırmaq istədiyi guya Azərbaycan müharibə etməkdən çəkinir tezisini tamamilə alt-üst edib və güman ki, ermənilərin bundan hansı nəticəni çıxarıb, çıxarmamasından asılı olmayaraq dünya icyimaiyyətində tamamilə qəti bir fikir formalaşıb ki, həqiqətən Azərbaycan heç bir zaman torpaqlarının işğal altında qalması ilə razılaşmayacaq: "100 il əvvəl olduğundan fərqli olaraq- yəni, İrəvanın, Zəngəzurun Ermənistana verilməsilə 100 ildir barışmasına baxmayaraq, bunun əksinə Azərbaycan 80-ci illərdən bu yana itirdiyi torpaqlarını geri qaytarmaq üçün həran bir nəfər kimi döyüşməyə hazırdır və hazır olacaq".

***Aysel Məmmədova***

## Kim Kardaşyan Ermənistana dəstək axtarır!

"Instagram"da 179 milyon izləyicisi olan amerikalı sosial media blogeri, foto-model Kim Kardaşyan şəxsi hesabından Ermənistana dəstəklə bağlı paylaşım edib. SİA xəbər verir ki, erməni əsilli foto model sərhəddə baş verən hadisələrlə bağlı sosial media istifadəçilərini və beynəlxalq qurumları Ermənistana dəstək olmağa çağırıb. Kim Kardaşyan paylaşımında qlobal siyasi güclərə səslənib. O, diplomatik mexanizmləri və beynəlxalq birliyi Ermənistana dəstək olmağa çağırıb. Həmçinin o, "Twitter" hesabından da Ermənistanla bağlı çağırış edib.

## Ermənistanda SES partladı!



Ermənitanın Sevan-Hrazdan Su Elektrik Stansiyasında yanğın olub. SİA xəbər verir ki, Argeldə yerləşən SES binasının qarşısında yerləşən "T-4" hidrotexniki qurğunun 2 güc transformatorunda partlayış səbəbindən yanğın baş verib. Bu barədə Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Transformatorların hər birində 8 ton yağ olub. Yanğınsöndürənlər yanğının digər 10 transformatora yayılmasının qarşısını alıb.

# Cinayətkarlar mütləq cavab verməli olacaqlar

***Deyir zaman hər şeyi üzə çıxarır və hər kəs də gec-tez layiq olduğu cəzanı alır. 27 il "müxalifətdəyəm" deyənlərin əqidəsi, məsləki, satqınlığı, əxlaqsızlığını zaman, özü də dünyanı ağuşuna alan koronavirusun baş aldığı bir dövrdə elə üzə çıxardı ki, virus qaldı bir yana, AXCP-nin Rəyasət Heyətinin "zoom" iclasında Əli Kərimli başda olmaqla müxalifətin, xüsusilə də müsavatçılara qarşı söyüş və təhqirlərə yol verməlləri ilə bir daha cəbhəçilərin nifrətini göstərdi və bu da boğazdan yuxarı "milli demokratların" siyasi məhvi olacağının labudi idi".***

Və bu gün təcavüzkar Ermənistanın törətdiyi təxribatlarına həmişə dəstək verən radikal müxalifət, xüsusilə də AXCP sədri Əli Kərimli indi iş çətinə düşən kimi, "dövlətin yanındayıq" deməklə iblis xislətindən əl çəkmədiyini nümayiş etdirmədimi? Ə.Kərimli belə şeytan oyunlarını çox edib. Belə ki, hakimiyyətdə olduqları bir il müddətində Surət Hüseynovun dar ağacından xilas olmaq üçün Ulu Öndər Heydər Əliyevdən kömək istədilər, bunula xilas oldular, sonra aprel döyüşləri zamanı və bu gün növbəti oyun. Bu oyun minlərlə xalqın nümayəndəsi Bakı küçələrinə çıxaraq öz ordusuna, onun Ali Baş Komandanına, dövlətinə dəstəyini ifadə edən yürüş etdi. Nümayiş sakit, polisin heç bir müdaxilə etmədiyi şəraitdə keçdi. Xalq axını Şəhidlər Xiyabanından Milli Məclisin önündəki meydana yönəldi və orada birləşdi. İlk görüntülər möhtəşəm idi, qürurverici idi. Hər yerdən ordumuza dəstək səsləri gəlirdi. "Ali Baş Komandan, silah ver bizə", "İrəli, irəli, Azərbaycan əsgəri", "Şəhidlər ölməz, vətən bölünməz" şüarları insanlarımızın münasibətini və mitinqin gerçək mahiyyətini ifadə edirdi, xalqın Prezident və Ali Baş Komandan İlham Əliyevə inam və dəstəyi ortaya qoyurdu. Amma sonra yenə... xalqın birlik aksiyasınıı ləkələməyi bacardılar. Milli Məclisin binasına hücum etdilər, Milli Məclisin foyesində "Allahu-Əkbər" şüarları qışqıran gənclər peyda oldular. Allah böyükdür və şəriki yoxdur! Hamımızın təvəkkülü də onadır! Lakin niyə Milli Məclisin işğalı məhz bu şüarla həyata keçirildi? Niyə xarici ölkələrə bağlı internet yayın qurumları məhz seçib onları çəkir, dövlətin, ölkə rəhbərliyinin əleyhinə danışan 4-5 qərəzli şəxsi dəfələrlə və ard-arda efirə alırdı? Bu suallara cavab tapılacaq.

## "Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik"

"Mənə verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar. Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz".



Bunu Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda deyib. övlət başçısı bildirib ki, dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır: "Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

## "Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar"

"Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin". Sözügedən iclasda dövlət başçısı bildirib ki, Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı: "O fərarilər ki, ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax, bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək".

Prezident İlham Əliyev bildirib ki, ona verilən məlumata görə, dünən bəzi müxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar: "Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik.

Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. İndi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır.

Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa, onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır, bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu, son dərs olacaqdır.

Ona görə, bir daha demək istəyirəm, hüquq-mühafizə orqanları bu işlərlə məşğul olacaq. Onların bütün antidövlət çıxışları, çağırışları təhlil ediləcək. Əgər orada cinayət tərkibi varsa, onlar dərhal cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz "Beşinci kolon"la bu işi bitirməliyik, belə davam edə bilməz. Yəni, burada dözümlülük qətiyyən yolverilməzdir. Adi günlərdə biz bəzi hallarda gözümüzü yumuruq, deyirik ki, əhəmiyyətsiz şeydir. Amma belə vəziyyətdə bu, düşmənçilikdir. Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

H.Hacıyev onu da bildirib ki, radikal düşərgə təmsilçilərinin fəaliyyətləri 27 ildir ki, məhz bundan ibarətdir: "Onlar yalnız hakimiyyəti deyil, xalqı da şərləyirlər və həqiqətən də xalqa pislik arzulayandırlar. Bu insanlara nəinki hakimiyyəti, ümumiyyətlə heç nəyi etibar etmək olmaz. Düşünürəm ki, əgər Q.Zahid və digərləri artıq nə danışdıqlarının fərqinə varmırlarsa, deməK ki, onlar daha betər virusa yoluxublar. Hətta deyərdim ki, koronavirus ən böyük zərbəni məhz onlara vurdu".

H.Hacıyev onu da vurğulayıb ki, keçirilən o mitinq yürüşü millətimizin orduya, dövlətə olan dəstəyinin təsdiqi idi: "Buna görə mən xalqımın qarşısında baş əyirəm. Ona görə ki, bu millət ac da qalsa da, məmurlar onları incitsə də, haqlarını yesələr də, öz dövlətinə sahib çıxmağı hər an nünayiş etdirib. Mən belə təxribatların hazırlandığını və kimlərin buna başçılıq etdirini əvvəlcədən demişdim. Zaman-zaman adını çəkdiyim keçmiş məmurların, nazirlərin ölkədə təxribat törədəcəkləri ilə bağlı fikirlərimi bildirmişdim. Təbii ki, Milli Məclisin boş olduğu bir vaxtda, "Qarabağ" uğrunda şüarların kölgəsində kimlərinsə xaincəsinə Milli Məclisə daxil olması yersiz idi. Biz bunu daxili qüvvələrin təxribatı hesab edirik. Görünən odur ki, millətin ordunun yanında olmasını belə çoşqu ilə nümayiş etdirməsi, Ali Baş Komandana sərgilənən inam həmin xain qüvvələrin ürəyincə deyildi. Xalqın içinə salınan təxribatçı dəstələrin Milli Məclisə yersiz hücumu utancverici haldır".

MMP sədri bir daha aidiyyatı orqanları ayıq-sayıq olmağa çağırdı: "Onlar heç olmasa bizim dediklərimizi araşdırsınlar, eyş-işrətlərdən başaları açılsın və görsünlər ki, Hafiz Hacıyev nə danışır, nə deyir. Amma bunlar edilmir. Dünən təyin olunan deputatlardan biri də xalqın qarşısına çıxmadı".

Partiya sədri bildirib ki, birmənalı olaraq bu təxribat hakimiyyətdən qovulan keçmiş məmurların daxildə sabitliyi pozmağa çalışan qruplarıdır: "Tam əminliklə deyirəm ki, axşam təxribatı törədənlər vəzifədən uzaqlaşdırılmış nazir və məmurların diqtəsi ilə hərəkıt edib. Bunlar diqqəti özlərindən yayındırmaq istəyirlər. Bunlar Prezidentin Dağlıq Qarabağda aparacağı uğurlu əməliyyatlardan çox narahatdırlar. İtkilər versək də ordumuz çox qətiyyətlə hücuma keçib, ermənilərin yüzə qədər erməni itlərini öldürüblər. Bunu onların burdakı qohumları qəbul etmirlər. Dəfələrlə qeyd etdiyim kimi "5-ci kolon"un burdakı nümayənmdələri, onların əlaltıları və Milli Məclisə hücum edənlər ortaya çıxarılmalıdır. İstərdim ki, onlar barədə xalqa məlumat versinlər. Xalq görsün ki, Hafiz Hacıyevin apardığı mübarizə, dediyi faktlar öz yerini aldı. Dağlıq Qarabağın işğaldan azad edilməsi ərəfəsində "5-ci kolon" daxildə diqqəti vətəndaş müharibəsinə yönəltmək istəyir. Hüquq-mühafizə orqanlarını qətiyyətli olmağa səsləyirəm".

## İqtidarın uğuru, radikalların iç üzü...

Göründüyü kimi, hələ çox faktlar üzə çıxacaq. Doğrudur, xalqımız 2003-cü ildən büu günə kimi "müxalifət" deyilən qurumun hansı məqsədlərə və kimlərə quluq etdiklərini, ən əsası isə satqınçılıqlavrını bilirdi. Bu gün son 17 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünayını ağuşuna alan koronavirusa qarşı mübarizədə ancaq vətəndaşların sağlamlığının prioritet olduğunu deyərək dövlət başçımız "Biz birlikdə güclüyük" şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görürü və öz liderinə inanır. Və Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları müxalifəti təşvişə salıb. Radikal fikirli , "görkəmli hüquqşünas" , "millət fədaisi" Əli Kərimli, öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən, mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və Sevinc Osmanqızı və digərləri bu çıxışa siyasi don geyindirməyə, heç kimin başa düşmədiyi siyasətdən danışmağa başlayıblar. Azərbaycanın hər bir uğuru, möhtərəm Prezidentimiz İlham Əliyevin hər qələbəsi müxalifət "qəhrəmanlarının" kürkünə birə salıb.

Qeyd etdiyimiz kimi, həmin antimilli ünsürlər Azərbaycanda pandemiyanın təsirlərinin minimuma endirilməsi yönündə atılan addımları görməzdən gəlir, dövlətin öz vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinin təmin olunması ilə əlaqədar həyata keçirdiyi tədbirlərin üzərinə kölgə salmağa cəhdlər edirlər. Məsələn, tətbiq olunan xüsusi karantin rejimi çərçivəsində reallaşdırılan tədbirləri fərqli formada ictimai rəyə təqdim etməyə çalışan Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Qənimət Zahid kimi dağıdıcılar vətəndaşları qanunlara qarşı çıxmağa çağırır, yalan məlumatlarla - dezinformasiyaya əsaslanan çağırışlarla təşviş yaratmağa çalışırlar. İctimai fikri manipulyasiyaya məruz qoymağa çalışan dağıdıcılar qanunun tələblərinin pozulmasına haqq qazandırmağa çalışmaqla öz anarxist və antimilli simalarını bir daha ortaya qoyurlar. Əslində özləri də yaxşı bilirlər ki, xalqımız ölkə daxilindəki bu antimilli ünsürlərin əsl niyyətlərini görür və onların yalanlarına qətiyyən inanmırlar.

Və sonda bir faktı bir daha vurğulamaq istərdim: "Azərbaycan saatı" kanalın "HÜSEYN AŞİQİ" adlı moderatoru Q.Zahidin canlı yayımlarını bəyənib paylaşmayanları "şərəfsiz" adlandırır. Hətta hərdən daha irəli gedərək xalqı da təhqir edir. Belələrindən bundan savayı bir şey də gözləmək mümükünsüzdür. Çünk bolşevizm təfəkkürlü bu satqınlar özləri də deyir ki, yalnız təhqirlə danışmaq, məhz savadsız, əxlaqdan və tərbiyədən kənar olanları tapıb partiyaya cəlb etmək lazımdır. Belə olan halda, Qənimət Zahid kimi əxlaqsızın hakimiyyəti şərləməyi "qəhrəmanlıq" sayırsa belələrini bu virusun qurbanına çevrilməsi labüddür. Və bu gün Qənimət Zahidin "Bizim işimiz hökuməti şərləməkdir" etirafını etməsi ilə bir daha reallıqda birbaşa düşmən qoltuğuna sığınmaqla xalqa, dövlətə əsl xain olduqlarına və nə zamansa, bütün bunlara görə mütləq, amma mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycançılıq ideologiyasının tarixi kökləri

***Azərbaycançılıq ideologiyasının rəsmi tarixi son iki əsrlə bağlıdır. Bu tezisi görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev də özünün "Milli "mən" şüuru və etnik yaddaş-azərbaycançılıq" adlı dərin məzmunlu məqaləsində təsdiqləyə-rək, yazır: "Millət- Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya mo- deli-azərbaycançılıq! - iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu, sonuc qənaəti bu gün bu iki düsturla formulə edilir".***

Lakin ümumi qəbul olunmuş qənaət belədir ki, bu ideologiyanın tarixi zəmini daha dərindədir, ideya qaynaqları isə təqribən min, min beş yüz il qədimlərə gedib çıxır. Xalqımız dünyaya Zərdüştü və "Avesta" kitabını, "Kitabi-Dədə Qorqud"u və qorqudçuluq məfkurəsini, "Koroğlu"nu və Çənlibel sosiologiyasını bəxş etmişdir ki, bunlar da bir tərəfdən ümumazərbaycançılıq məfkurəsinin, məxsusi birgə dəyərlərin, ümumi düşüncə və ictimai davranış tərzinin formalaşması və adət-ənənə sisteminin bərqərar olmasına təkan vermiş, digər tərəfdən isə Şərqin oxşar mənəvi dünyasının əsaslarının qurulmasında həyati rol oynamışdır.

S.Vəliyeva yazır ki,Azərbaycanda Zərdüştə qədərki dövrdə də böyük mədəniyyət, fəlsəfə, həyat dünyagörüşü, əxlaq örnəkləri mövcud olmuşdur. Lakin Azərbaycana dair tarixi mənbə və materiallar müxtəlif vaxtlarda, xüsusilə də ərəb istilası dövründə dağıdılmış, ölkəmizin tarixinə aid çox qiymətli qədim yazılı bilgi və məlumatlar sıradan çıxarılmışdı. "Avesta" kitabı bu gün bizdən ötrü ona görə ən qiymətli tarixi-mədəni abidədir ki, Azərbaycanın bütün dünyada, Şərq aləmində cahanşümul bir ölkə kimi mənəviyyatın, mədəniyyətin təməl daşlarını qoymuş bir məmləkət olduğunu yazılı təsdiqləmiş ilk sənət nümunəsidir.

"Kitabi Dədə Qorqud"u Azərbaycan xalqının ana kitabı adlandırırlar. Burada xalqımızın ümummilli ruhu ifadə olunmuşdur. Azərbaycan ruhunu, azərbaycanlıları digər millət və etnoslardan fərqləndirən ən mühüm amillərin məcmusunu özündə ehtiva edir. Bu torpaq tarix boyunca çox hücumlara, basqınlara, imperiya hökmlərinə məruz qalmışdır, azərbaycançı- lıq ruhu isə daim yaşamış və xalqımızın yadellilərin hücumlarına müqavimət qüvvəsini əks etdirmişdir.

Dastanda ifadə edilmiş Vətənin müqəddəsliyi ideyası, ana kultu, qadınla kişinin bərabərliyi, de- mokratizm və ərənlik, ləyaqətlə yaşayıb ali məqsədlər uğrunda ölmək fəlsəfəsi bu gün də milli ideologiyamızın təməlini təşkil edən başlıca prinsiplərdir.

"Kitabi Dədə Qorqud"da etnik birlik və ictimai həmrə"yliyin oğuz elinin parçalanmasının qarşısını alan ən mühüm şərt kimi təsvir edilməsi müasir dövrdə də aktuallıq daşıyır.

Dastanda ölkənin təhlükəsizliyini qorumaq yolunda böyüklü-kiçikli, qadınlı-kişili bütün xalqın səfərbər olunması, müqəddəs Vətən amalı ətrafında xalqın bütün təbəqələrinin sıx birləşməsi nəinki o dövr üçün, eyni zamanda erməni təcavüzünə məruz qaldığımız, xarici və daxili düşmənlər tərəfindən Azərbaycanın parçalanması planlarının qüvvədə saxlanıldığı günümüzdə də ibrətamiz səslənir.

M.Yusifovun fikrincə isə,azərbaycançılıq anlayışı ilə türkçülüyü qarışdıranlar, əlbəttə ki, tarixiliklə müasirlik arasındakı əlaqə və münasibətləri unudaraq yaddan çıxarırlar. Tarixən türk xalqlarının vahid bir dövlət qurumuna daxil olmaları barədə bu və ya digər mənbələrdən məlumat almaq mümkündür. Məsələn, "Kitabi - Dədə Qoruqd"dakı 24 qəbilə - tayfa birliyi, 24 tayfada birləşən Səlcuq hakimiyyətinin mövcudluğu, Səlcuqun nəvəsi Toğrul bəyin 1038-ci ildə özünü sultan elan etməsi ilə Şərqdə böyük Səlcuq imperiyasının yaranması və s. digər tarixi gerçəkliklər türklərin vahid dövlətdə birləşməsini təsdiq edən reallıqlardan ibarətdir. Digər tərəfdən, türk xalqlarının Şimaldan Cənuba" Şərqdən Qərbə tarixi yayılmaları onların böyük bir imperiya daxilində mövcud olduqlarını təsdiq edən faktlardır. Lakin indi zaman bizi həmin tarixi mərhələdən xeyli uzaqlaşdırmışdır. Türk xalqları indi ərazi cəhətdən, dövətçilik qurumu baxımından, etnopsixoloji cəhətdən, dil normaları baxımmdan diferensiallaşmışdır. Hər bir xalqın özünə məxsus milli-etnik ənənələri yaranmışdır. Buna görə də məsələn, qazax dilində, mədəniyyətində, məişətində, sosial-iqtisadi həyatında əlbəttə ki, qırğız, qaraqalpaq, Altay, özbək, türkmən, tatar, çuvaş, kumık, noqay, qaraçay-balkar, qaqauz xalqlarından fərqlənən fərdi cəhətlər meydana gəlmişdir. Eləcə də Azərbaycan xalqına məxsus etnik prosesləri millilik baxımından başqa türk xalqları ilə tam eyniləşdirmək mümkün deyildir. Odur ki, türkçülük ideyasını Azərbaycan həyatına tətbiq etməklə bağlı olan ideyalar həqiqi mənada romantizmdən, xəyalpərəstlikdən başqa bir şey deyildir. Ona görə də Ramiz Mehdiyev haqlı olaraq yazır ki, "Milli ideyanın əsasını, başlıca amalını xəyali ideyalar və romantik arzular deyil, tarixi ənənələrə, əvvəlki nəsillərin təcrübəsinə və dövrün ruhunua uyğun olan milli dövlətçiliyin yaradılması təşkil edir. Xalqımız tarixi təcrübədən və son illərin praktikasından məhz bu qənatə gə imişdir".

S.Vəliyeva bir daha göstərir ki,şifahi ədəbiyyatımızda vətənçilik, ideala və torpağa tapınma, mərdlik baxışları XVII-XVI1I əsrlərin möhtəşəm abidəsi - "Koroğlu" dastanında daha aydın və açıq mətnlə öz əksini tapmışdır. Dastanda nisbətən sonrakı dövrlərin hadisələri təsvir olunsa da, Azərbaycan xalqının ən qədim və ən yaşarı milli- mənəvi dəyərləri təcəssüm etdirilir. Xalq öz milli varlığının, yabançı və mahiyyətcə istilaçı xarici ətraf qüvvələrə qarşı mütəşəkkil birlik və bütövlüyünün rəmzi kimi Çənlibel sosiumunu, bu cəmiyyətin mənəvi prinsiplərə əsaslanan institusional konstruksiyalarını sevə-sevə tərənnüm edir. "Koroğlu" dastanındakı Çənlibel, Koroğlu və onun ətrafında bir yumruq kimi birləşmiş xalq kütlələri milli Azərbaycan ideyasının azad Vətən, tarixi şəxsiyyət və xalq demokratiyasından ibarət iki mühüm tərkib hissəsinin simvolik arxetipi kimi dərk oluna bilər.

Müəllifin fikrincə,Azərbaycançılıq ruhu vahid ümumşərq klassik ədəbiyyatı kontekstində də yaşarılığını qorunub saxlamış, qədim və orta əsrlərə xas yabançı ideologiyalar zəminində bu və digər şəkildə özünü göstərmiş, dahi sənətkarlarımız tərəfindən təbliğ və tərənnüm edilmişdir. XII əsrin dahi mütəfəkkiri Nizami Gəncəvi məşhur "İskəndərnamə" poemasında böyük yunan fatehi Makedoniyalı iskəndərin Azərbaycana gəlməsini təsvir edir və Bərdə hökmdarı Nüşabənin dili ilə ona nəsihət verirdi.

Həsənoğludan başlayaraq, əsası qoyulan türkdilli poeziya məhz Nəvai və Füzuli yaradıcılığı ilə kamala yetişir. Füzuli türk dilində yüksək, ali poetik yaradıcılığın, xüsusən qəzəl və məsnəvi yaradıcılığının estetik kanonlarını işləyib hazırlayır ki, bunu da azərbaycançılıqda əsl inqilab hesab etmək olardı. Belə ki, Füzuli yaradıcılığı ilə azərbaycançılığın əsaslarından biri və birincisi olan Azərbaycan dili öz inkişafında tamamilə yeni mərhələyə qədəm qoyur, bütün müsəlman mədəniyyəti arealında fars və ərəb dilləri ilə eyni sırada ümumişləklik statusu qazanırdı.

Sonralar Nəsimi və Şah İsmayıl Xətai bu böyük işi davam etdirmiş və divan ədəbiyyatı dilini canlı xalq dilinə yaxınlaşdırmışdılar. Qüdrətli fateh olmaqla yanaşı həm də ana dilində səmimi şerlər yaradan Şah İsmayılın hakimiyyəti illərində Azərbaycan dilinin rəsmi dövlət dili statusuna yüksəlməsi öz təməlini məhz Füzuli poetik ənənələrindən götürmüşdü. Azərbaycanşünaslığın, azərbaycançılığın birinci və ən vacib ünsürü dildir. Hər şey dildən başlayır. Xalqın dilini onun çoxəsrlik həyatının güzgüsü, nəsillər arasında ötürücü əlaqə, yaddaş vasitəsi, xalqın tam və həqiqi tarixi adlandırmaq olar. Kitabın, məktəbin olmadığı əyyamlardan üzü bəri və bu gün də insanların keçmişi, bu günü, gələcəyi arasında körpü salaraq onları maarifləndirməkdə, milli özünüdərk hisslərini formalaşdırmaqda və onu sonrakı nəsillərə ötürməkdə milli dil ən mühüm vasitə hesab olunur. Dil xalqın mahiyyəti deməkdir. Əgər o yox olarsa, xalq da yer üzündən silinər. Xalqın əlindən alınan hər şeyi yenidən ona qaytarmaq mümkündür, yalnız onun dili əlindən alındıqda həmişəlik məhvə məhkum edilir. Odur ki, dilə təkcə ünsiyyət vasitəsi kimi yox, milli fikrin, təfəkkürün, dünyabaxışın, dünyagörüşün, milli davranışın fundamental nizamı və qaydası kimi yanaşmaq lazımdır.

Dil həmişə konkret bədii, fəlsəfi, elmi və s. mətnlərdə yaranır, cilalanır və milli mentalitetin ən müxtəlif ünsürlərini tarixin yaddaşına hopdurur. Bu cəhətdən Yaşar Qarayevin başqa bir fikri də istiqamətverici səciyyə daşıyır. O yazır: "...Nə etnik şüur, nə də milli yaddaş öz kökünü, cövhərini kənar mənbədən almır, təlimat kodeksi, nizamnamə sənədi, qurultay qətnaməsi və protokoldan çıxarış, qərar şəklin də mövcud olmur. Kütləviləşməsi, mənimsənilməsi də bürokratik-inzibati yolla, toplantılarda, iclaslarda gerçəkləşmir. Kütləni milli ideyaya elm, mədəniyyət, fəlsəfə hazırlayır." Bu baxımdan yanaşdıqda etiraf etmək lazımdır ki, çoxəsrlik tariximizdə xalqımızı yaşadan, onu ruhən qoruyan və müasir dövrə gətirib çatdıran ən əsas amillərdən biri onun ədəbiyyatı - söz sənəti və dil mədəniyyəti olmuşdur.

İstiqlal düşüncəsinin təşəkkülündə milli-mənəvi varlığın, ədəbimədəni dəyərlərin fundamental rolunu milli maarifçiliyin və əməli hərəkət dövrünün öz xadimləri də dəfələrlə etiraf etmişlər. Bu baxımdan Mirzəbala Məmmədzadənin aşağıdakı fikri olduqca xarakterikdir: "Azərbaycan milli xartiyasının xülasəsi, istiqlal fikrinin təsisində Vaqifdən tutmuş Cavidə qədər, Zakirdən başlamış Cavada qədər, Mirzə Fətəlidən Üzeyirə kimi, "Əkinçi"dən "Azərbaycana" və "Yeni Qafqazyaya"dək hər birinin olduqca böyük rolu və dəyərli rolu olmuşdur. Siyasi-ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən bu dövr bugünkü aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin etmək üçün belə keçirdiyimiz fikri-inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər. O dövrün də özünəməxsus məfkurəsi, məfkurə uğrunda çəkişməsi, mübari zəsi, o dövrün də qəhrəmanları, məzlumları, şəhidləri və mücahidləri olmuşdur.

Onların yorulmaq bilməyən çəkişmələri nəticəsindədir ki, bu gün biz minlərcə gənci ölümə sövq edən bir xartiya almışıq. Zən- nimcə, Mirzə Fətəli və Həsənbəy Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal fikri, Azərbaycan milli xartiyası 50 il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır... Özünün türkçülüyünü və azərbaycançılığını dərk etməyən bir xalq 28 may bəyannaməsinii verə bilməzdi".

**Vahid Ömərov f.ü.f.d. dos.**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 iyul

Son səhifə

# Koronavirusun Azərbaycanda toylara təsiri açıqlandı



2020-ci ilin yanvar-may ayları ərzində Azərbaycanda qeydiyyat şöbələri tərəfindən 15 334 nikaha daxilolma və 5 788 boşanma halları qeydə alınıb. SİA-nın məlumatına görə, əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,7, boşanmaların sayı isə 1,4 olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə həm nikahların, həm də boşanmaların sayında xeyli azalma müşahidə olunur. Belə ki, 2019-cu ilin yanvar-may ayları ərzində qeydiyyat şöbələri tərəfindən 23 684 nikah və 7082 boşanma halları qeydə alınmışdı.

# Messidən daha bir tarixi uğur




***"Barselona"nın futbolçusu Lionel Messi La Liqada tarixi göstəriciyə imza atıb. Qol.az-ın xəbərinə görə, argentinalı hücumçu İspaniya çempionatında 7 dəfə bombardir adını qazanan ilk futbolçu olub. Kapitan daha əvvəl - 2010, 2012, 2013, 2017, 2018 və 2019-cu illərdə də ən çox qol vuran oyunçu adını qazanmışdı. O, bu mövsüm 33 oyunda 25 qol vurub və bombardir üçün nəzərdə tutulan "Piçiçi" mükafatına layiq görülüb.***

Qeyd edək ki, indiyədək La Liqa tarixində ən çox bombardir olan futbolçu ünvanı hərəyə altı dəfə olmaqla Messi ilə Telmo Zarraya məxsus idi. Əlavə edək ki, Messi həm dı ardıcıl 4-cü dəfədir ki, La Liqanın ən yaxşı bombardiri olub.

# Haverts "Çelsi"yə keçir?

Londonun "Çelsi" futbol klubu, "Bayer"in futbolçusu Kay Havertsi heyətinə qatmağa yaxındır. "The Atletic"in yazdığına görə, bir çox Avropa klubu oyunçu ilə maraqlansa da, London təmsilçisi bu transfer üçün daha iddialıdır. "Zadəganlar"ın 21 yaşlı hücumçu üçün 80 milyon avro ödəməyə hazır olduğu bildirilir. Almaniyalı futbolçunun da "Çelsi"yə keçməyə razı olduğu qeyd edilib. Kay Haverts bu mövsüm Bundesliqada 30 oyuna 12 qol vurub və 6 qolun ötürməsini edib.




# Sinoptiklərdən xəbərdarlıq: Havanın temperaturu enəcək, yağış yağacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə Bakıda və Abşeron yarımadasında bir neçə gün davam edən isti hava şəraitindən sonra iyulun 21-i axşamdan iyulun 23-dək havanın qeyri-sabit keçəcəyi, şimal-qərb küləyinin 15-20, arabir 23-25, yarımadanın bəzi yerlərində 28-30 metr/saniyəyədək güclənəcəyi, gecə və səhər saatlarında yağış yağacağı gözlənilir.



Xidmətdən AZƏRTAC-a bildiriblər ki, havanın temperaturu ötən günlərlə müqayisədə 5-8° enəcək. Azərbaycanın rayonlarında bir neçə gün davam edən isti hava şəraitindən sonra iyulun 21-i axşam şimal və qərb rayonlarından başlayaraq iyulun 25-dək ölkə ərazisində havanın qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı, əsasən şimal və qərb rayonlarında leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi gözlənilir. Qərb küləyi əsəcək, saniyədə 15-20, iyulun 21-də gündüz və iyulun 22-də ayrı-ayrı yerlərdə arabir 25-30 metrədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8° enəcək. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır.

# Alimlər qocalma prosesinin başlıca mexanizmini açıqladılar



***Eyni genetik materiala malik hüceyrələrin eyni mühitdə qocalması iki müxtəlif yolla baş verə bilər. Müvafiq tədqiqatın nəticələri "Phys.org" portalında qeyd olunub.***

AZƏRTAC RİA Novosti saytına istinadla xəbər verir ki, Kaliforniya Universitetinin (San-Diyeqo, ABŞ) molekulyar bioloqları və biomühəndislər çörək mayasında (Saccharomyces cerevisiae) hüceyrə proseslərini tədqiq ediblər. Alimlər mikrohidrodinamikanın və kompüter modelləşdirilməsinin köməyilə müəyyən ediblər ki, təqribən hüceyrələrin yarısı nüvədə (nüvə DNT-də, burada zülalların sintezi üçün əsas komponentlərin formalaşması baş verir) sabitliyin tədricən azalması nəticəsində qocalır. Hüceyrələrin digər yarısında isə mitoxondrilərdə disfunksiya baş verir.

Məlum olub ki, qocalmanın iki yolundan biri erkən yaşda müəyyən olunur və hüceyrələr ömür boyunca bu yolla gedirlər. Lakin tədqiqatçılar kompüter modelləşdirməsinin köməyilə əsas molekulyar sxemi dəyişdirə biliblər. Onlar hüceyrə DNT-ni modifikasiya edərək uzun ömürlü qocalma yolu yaradıblar.

Mütəxəssislər bu cür tədqiqatları digər hüceyrələrdə və orqanizmlərdə, o cümlədən insan toxumasında davam etdirmək fikrindədirlər.

# Azərbaycan triatlonçusu Ukraynada qızıl medal qazanıb

Triatlon üzrə Azərbaycan millisi koronavirus pandemiyası ilə bağlı məcburi fasilədən sonra növbəti yarışda gücünü sınayıb. AZƏRTAC xəbər verir ki, yığmamızın üzvü Rostislav Pevtsov Olimpiya məsafəsi üzrə açıq Ukrayna çempionatında iştirak edib.

Bütün rəqiblərini qabaqlayan Azərbaycan təmsilçisi yarışın qalibi olub. Bir müddət əvvəl R.Pevtsov sprint üzrə açıq Ukrayna çempionatında gümüş medal qazanmışdı. Qeyd edək ki, R.Pevtsov 2019-cu ilin ən yaxşı kişi triatlonçusu seçilib.




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**